# DİPLOMATİYA ALƏMİ

## WORLD OF DIPLOMACY

AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİNİN JURNALI
№ 25, 2009

**REDAKSİYA ŞURASI**

| | |
|---|---|
| **Elmar MƏMMƏDYAROV** | Xarici İşlər Naziri (Redaksiya Şurasının Sədri) |
| **Novruz MƏMMƏDOV** | Xarici Əlaqələr Şöbəsinin müdiri , Azərbaycan Respublikası Prezidentinin Administrasiyası |
| **Araz ƏZİMOV** | Xarici İşlər Nazirinin müavini |
| **Xələf XƏLƏFOV** | Xarici İşlər Nazirinin müavini |
| **Mahmud MƏMMƏD-QULİYEV** | Xarici İşlər Nazirinin müavini |
| **Hafiz PAŞAYEV** | Xarici İşlər Nazirinin müavini |
| **Vaqif SADIQOV** | Xarici İşlər Nazirinin müavini |
| **Elman AĞAYEV** | Xarici Siyasətin Planlaşdırılması və Strateji Araşdırmalar İdarəsinin rəisi v.i.e., Azərbaycan  Respublikasının Xarici İşlər Nazirliyi |

**REDAKSİYA HEYƏTİ**

| | |
|---|---|
| **Hüseyn Hüseynov** | Birinci Katib Xarici Siyasətin Planlaşdırılması və Strateji Araşdırmalar İdarəsi, Azərbaycan  Respublikasının Xarici İşlər Nazirliyi |

@ All rights reserved.
The views expressed in articles are the responsibility of the authors
and should not be construed as representing the views of the journal.

"World of Diplomacy" journal is published since 2002.

Registration N@ 1161,14 January 2005
ISSN:1818-4898

Postal address: Foreign Policy Planning and Strategic Studies Department,
Ministry of Foreign Affairs, Sh.Gurbanov Str. 4, Baku AZ 1009

Tel.: 596-91-03; 596-91-47; 596-93-31  e-mail: css@mfa.gov.az

# MÜNDƏRİCAT - CONTENTS - СОДЕРЖАНИЕ

## RƏSMİ XRONİKA - OFFICIAL CHRONICLE - ОФИЦИАЛЬНАЯ ХРОНИКА

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu ilin 4-cü rübü ərzində həyata keçirdiyi diplomatik fəaliyyət........ 3-18

Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun 2009-cu ilin 4-cü rübü ərzində həyata keçirdiyi diplomatik fəaliyyət........ 19-25

## XƏBƏRLƏR — NEWS — НОВОСТИ

EU-Azerbaijan Cooperation Council tenth meeting, 26 October 2009, Luxembourg........ 26

"Inter-civilizational dialogue: insight from Azerbaijan" international conference dedicated to the 40th anniversary of the Organization of the Islamic Conference, 11-12 November 2009, Baku ....26-27

1st Eastern Partnership Foreign Ministers meeting, 8 December 2009, Brussels........ 27

Winter Session of NATO International School of Azerbaijan, 7-13 December 2009, Baku........ 27-28

## TARİXİMİZİN ƏLAMƏTDAR GÜNLƏRİ – MOMENTOUS DATES OF OUR HISTORY - ЗНАМЕНАТЕЛЬНЫЕ ДАТЫ НАШЕЙ ИСТОРИИ

18 oktyabr – Azərbaycan Respublikasının Müstəqillik Günü ........ 29

12 noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günü ........ 29-30

17 noyabr - Azərbaycan Respublikasının Dirçəliş Günü ........ 30-31

31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ........ 31-32

## MƏQALƏLƏR - ARTICLES - СТАТЬИ

Elçin ƏHMƏDOV
Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti və ATƏT ........ 33-44

Azər XUDİYEV
Geosiyasi risklər şəraitində xarici siyasətin formalaşması və dialoq diplomatiyası ........ 45-50

Şəfa QASIMOVA
BMT-nin İnsan Hüquqları Şurası və Azərbaycan Respublikasının bu qurumdakı fəaliyyəti........ 51-55

Rashad SHIRINOV
Atlanticism in Polish foreign policy........ 56-64

Жанна ЛЬЕВО
Социальная политика Николя Саркози ........ 65-77

Эльджан ГАБИБЗАДЕ
Китай в роли новой супердержавы: реалии и перспективы ........ 78-85



# *Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2009-cu ilin 4-cü rübü ərzində həyata keçirdiyi diplomatik fəaliyyət*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN XARİCİ SƏFƏRLƏRİ

**08-09.10.2009** **Moldovaya işgüzar səfər**




Oktyabrın 8-də Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Kişinyova yola düşmüşdür.

MDB sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüşü keçirilmişdir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın və ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakovun (Rusiya) və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Sammit çərçivəsində prezident İlham Əliyev ilə Rusiya və Ukrayna Prezidentləri arasında ikitərəfli görüşlər keçirilmişdir.

MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Prezident İlham Əliyev Kişinyovda Azərbaycan Televiziyasına müsahibə vermişdir.

-Cənab Prezident, Ermənistan prezidenti ilə növbəti görüşünüz oldu. Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının sammitində qeyd etdiniz ki, hazırda danışıqlar son mərhələsindədir. Bu baxımdan bugünkü görüşün nəticələri barədə nə deyə bilərsiniz?



-Bildiyiniz kimi, danışıqlar uzun illərdir ki, aparılır.Əfsuslar olsun ki, hələ heç bir nəticə yoxdur. Mən qeyd etmişdim ki, artıq danışıqlar son mərhələsindədir və bu mərhələdə həlledici qərarlar qəbul edilməlidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Erməni silahlı qüvvələri bizim işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır. Bizim məcburi köçkün soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim mövqeyimiz, eyni zamanda, bütün beynəlxalq hüquq normalarına əsaslanır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilibdir. Digər beynəlxalq təşkilatların qərarları və qətnamələri vardır. Bir sözlə, beynəlxalq hüquq baxımından bizim mövqeyimiz çox güclüdür.
Danışıqlara gəldikdə, deyə bilərəm ki, müsbət dinamika vardır. Əgər bu olmasaydı, indiyə qədər bu danışıqlar aparılmazdı. Danışıqlara bizim sadiq qalmağımızın əsas səbəbi ondan ibarətdir ki, danışıqlar prosesində çətin də olsa, irəliləyiş vardır. Son 5-6 il ərzində çox vacib məsələlər razılaşdırılıb. İlk növbədə, Ermənistan qüvvələri Dağlıq Qarabağın ətrafında yerləşən bütün işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Bu, deyə bilərəm ki, danışıqlar prosesində böyük irəliləyişdir. Çünki 4-5 il bundan əvvəl 4 rayonun, ondan sonra 5 rayonun boşaldılmasından söhbət gedirdi. Ancaq danışıqlar prosesində atılan addımlar nəticəsində bu gün artıq deyə bilərəm ki, bu, razılaşdırılıbdır.
Danışıqların xüsusiyyəti ondan ibarətdir ki, hər şey razılaşdırılmayana qədər heç nə razılaşdırılmır. Bu o deməkdir ki, biz bütün məsələləri həll etməliyik. Ancaq biz o halda böyük sülh müqaviləsinə yaxınlaşa bilərik. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır və Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılar gələcəkdə yüksək muxtariyyət şəraitində yaşamalıdırlar. Bu da, eyni zamanda, dünyanın ən müsbət təcrübəsini özündə ehtiva edən bir yanaşmadır. Çox demokratik yanaşmadır və məsələ ancaq bu yolla öz həllini tapa bilər.
Kişinyov danışıqlarına dünyada və bölgədə çox böyük maraq var idi.Çünki artıq hamıya bəllidir ki, danışıqlar son mərhələsindədir və xüsusilə ermənilər konstruktiv mövqe tutarlarsa bu, danışıqlarda müsbət nəticəyə gətirib çıxara bilər. Bir daha demək istəyirəm ki, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Biz bütün proseslərdə öz mövqeyimizi müdafiə etmişik. Ancaq əfsuslar olsun ki, Kişinyov görüşü nəticəsiz qaldı. Bəli, yenə də qeyd etməliyəm ki, müəyyən məsələlərdə müəyyən, o qədər də böyük olmayan tərəqqi vardır. Ancaq əfsuslar olsun ki, tərəflər müzakirə edilən əsas məsələlərdə razılığa gələ bilməyiblər. Bunun da səbəbi, bir daha demək istəyirəm ki, Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Biz danışıqlarda həm beynəlxalq hüquq normalarına əsaslanırıq, eyni zamanda, danışıqları konstruktiv şəkildə aparırıq. Biz başqa tərəfin narahatlığını başa düşməyə çalışırıq. Biz başa düşürük ki, bu gün Dağlıq Qarabağda yaşayan əhali təhlükəsizlik təminatını almalıdır. Eyni zamanda, işğaldan sonra öz torpaqlarına qayıdacaq Azərbaycan əhalisi də təhlükəsizlik təminatı almalıdır. Dağlıq Qarabağa, Şuşaya qayıdacaq azərbaycanlılar da təhlükəsizlik təminatı almalıdırlar. Yəni bu proses paralel şəkildə aparılmalıdır və bölgədə yaşayan bütün insanların təhlükəsizliyi eyni dərəcədə vacibdir. Belə olan halda, bir daha demək istəyirəm ki, bizim prinsipial mövqeyimiz, danışıqlarda nümayiş etdirilən yanaşmamız beynəlxalq hüquqa əsaslanır. Ümid edirəm ki, Ermənistan tərəfi nəhayət konstruktivlik nümayiş etdirərək, çox vacib addımlar atacaq, işğal edilmiş torpaqlardan öz qoşunlarını çıxaracaq və beləliklə bölgədə sülh təmin olunacaq, bütün kommunikasiyalar açılacaq və geniş mənada əməkdaşlıq başlanacaqdır.
Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş bölgədə heç bir müsbət meyl gözlənilmir. Əgər kimsə fikirləşir ki, bölgədəki mövcud problemlərin bəzilərini asanlıqla həll etmək olar, mən buna şübhə ilə yanaşıram. Çünki bölgənin əsas problemi, əsas məsələsi Dağlıq Qarabağ münaqişəsidir. İlk növbədə bu münaqişə öz həllini tapmalıdır. Bundan sonra bütün başqa məsələlər də öz həllini tapa bilər.
-Cənab Prezident, oktyabrın 10-da Türkiyə ilə Ermənistan arasında münasibətlərin nizamlanmasını nəzərdə tutan protokolların imzalanması planlaşdırılır və məlumdur ki, Dağlıq Qarabağ məsələsi bu protokollarda öz əksini tapmayıb. Bununla bağlı Azərbaycanın mövqeyi necədir?
Azərbaycan öz mövqeyini dəfələrlə bəyan edib. Bu məsələ hələ aprel ayında gündəliyə salınanda Azərbaycan öz mövqeyini bildirmişdi. Mən də öz çıxışlarımda bu məsələyə toxunmuşdum. Xarici İşlər Nazirliyi rəsmi bəyanatla çıxış etmişdir. Mövqeyimiz ondan ibarətdir ki, biz başqa

ölkələr arasında yaranan, yaxud da ki, yarana biləcək münasibətlərə müdaxilə etmirik. Bunu yolverilməz sayırıq. Eyni qaydada, biz öz daxili işlərimizə kiminsə qarışmasını da arzulamırıq və buna imkan vermirik. Azərbaycan heç vaxt başqa ölkələrin nə daxili işlərinə, nə də ölkələr arasında münasibətlərə qarışıb. Bu, birinci məsələdir.

Heç kəs üçün sirr deyil ki, Türkiyə-Ermənistan sərhədinin bağlanmasının başlıca səbəbi və tək səbəbi Kəlbəcər rayonunun işğal altına düşməsi olmuşdur. Yəni məhz buna görə Türkiyə-Ermənistan sərhədi bağlandı və bu günə qədər belə vəziyyətdə qalır. Təbii ki, səbəb aradan qaldırılandan sonra sərhəd açıla bilər. Bu, bizim mövqeyimizdir. Eyni zamanda, Türkiyə rəhbərləri də bu məsələ ilə əlaqədar dəfələrlə öz mövqelərini bildirmişlər. Mən ümid edirəm ki, bu mövqe üstünlük təşkil edəcək və protokollarda, onların praktiki icrasında bu amil nəzərə alınacaqdır.

Siz qeyd etdiniz və bizdə olan məlumata görə bu protokollarda Dağlıq Qarabağ məsələsinin həlli nəzərdə tutulmur. Ancaq bununla bərabər, Türkiyənin rəhbərləri rəsmi bəyanatlarda və şəxsi görüşlər əsnasında dəfələrlə bizə bildirmişlər ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə-Ermənistan protokolları məclis tərəfindən təsdiqlənməyəcək və beləliklə sərhədlər açılmayacaqdır. Bunu Türkiyənin Prezidenti demişdir, Baş naziri demişdir, Türkiyə parlamentinin sədri demişdir, Türkiyənin xarici işlər naziri demişdir və biz buna inanırıq. İnanırıq ki, belə də olacaqdır. Belə olan halda bölgəyə sülh gələ bilər. Belə olan halda bölgədəki bütün ölkələr bu vəziyyətdən uğurla istifadə edib öz aralarında bütün məsələləri həll edə bilərlər. Ancaq bu halda bölgədə genişmiqyaslı əməkdaşlıq yarana bilər. Bəzən belə fikirlər də səslənir ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması, sərhədlərin açılması gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərə bilər. Mən bu fikirləri bölüşmürəm. Çünki mən hesab edirəm ki, əgər Türkiyə-Ermənistan münasibətləri Dağlıq Qarabağ məsələsinin həllindən əvvəl tənzimlənərsə, o zaman Ermənistanın mövqeyi danışıqlar prosesində daha da sərtləşə bilər. Ermənistan bunu bir növ öz siyasi və diplomatik uğuru kimi təqdim etməyə çalışacaq və çox güman ki, danışıqlarda daha da sərt və qəbulolunmaz mövqe tutacaqdır. Bunu deməyə kifayət qədər əsas vardır. Danışıqlar prosesi və danışıqlar prosesində müxtəlif mərhələlərdə yaşanan hadisələr bunu deməyə əsas verir.

Mən tam əminəm ki, iki proses - Dağlıq Qarabağ münaqişəsinin həlli və Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesləri paralel şəkildə getməlidir. Bu proseslər arasında rəsmi də olmasa, qeyri-rəsmi bağlantı vardır. Bu bağlantı saxlanılmalıdır və iki məsələ paralel şəkildə eyni anda həll olunmalıdır. Əks təqdirdə bölgədə status-kvo mənfi tərəfə dəyişə bilər. Status-kvonun dəyişməsi çox vacibdir. Çünki bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Biz buna nə vaxta qədər dözəcəyik?! Ancaq status-kvo əgər mənfi tərəfə dəyişərsə, bölgədə xoşagəlməz proseslərin başlanmasına gətirib çıxara bilər. Hələ ümid edirik ki, Dağlıq Qarabağ məsələsini biz danışıqlar yolu ilə həll edə bilərik. Əgər bu ümidlər tükənsəydi, biz bir dəqiqə də danışıqlarda iştirak etməzdik. Ancaq bölgədə gedən proseslər və böyük dövlətlərin bu məsələyə qoşulması, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin həllinə öz müsbət təsirini göstərməlidir. Mən inanıram ki, belə də olacaqdır. Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir və bir daha demək istəyirəm ki, mən verilən sözlərə inanıram. Türkiyə rəhbərləri tərəfindən verilən açıqlamalara inanıram və əminəm ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə-Ermənistan sərhədləri açılmayacaqdır.

-Cənab Prezident, Ermənistan prezidenti bu yaxınlarda xarici ölkələrə səfər edərkən erməni diasporunun təhqir və təzyiqləri ilə üzləşib. Sizcə bunun səbəbi nədədir?

-Bilirsiniz, bir daha qeyd etmək istəyirəm ki, biz bu bölgədə yaşayırıq, bölgənin bütün problemlərini yaxşı bilirik. Həm tarixini, həm bugünkü reallıqlarını bilirik və əlbəttə ki, bizim üçün nəyisə proqnozlaşdırmaq, təxmin etmək daha asandır, nəinki bölgədə yaşamayan siyasətçilər, yaxud da ki, dövlət xadimləri üçün. Dediyiniz kimi, Ermənistan prezidenti bu xarici səfərdə böyük təzyiqlərlə üzləşmişdir. Sözün düzü, bu səfərin mənasını biz axıra qədər anlamırıq. Çünki, bildiyiniz kimi, uzun müddətdir ki, Türkiyə ilə Ermənistan arasında protokolların imzalanma günü təyin edilmişdir və bu tarix Türkiyə və Ermənistan tərəfindən razılaşdırılmışdır. Belə olan halda bu ərəfədə diaspor nümayəndələri ilə görüş, məncə, formal xarakter daşıyırdı. Çünki, artıq tarix bəlli, protokolların mətni bəlli və onların dəyişməsinə heç bir imkan yox. Sadəcə olaraq bu, formal xarakter daşıyırdı. Amma özlüyündə bir göstəricidir. Baxın, bu normallaşma prosesi nəyə gətirib çıxarır.

Ermənistanda demək olar ki, siyasi böhran yaşanır. Ermənistanda koalisiya dağıldı, Ermənistanın

diaspor ilə əlaqələri sarsıldı. İlk dəfə olaraq Ermənistan prezidentini öz soydaşları xaricdə belə qarşılayırlar. Eyni zamanda, bu normallaşma əlbəttə ki, Azərbaycan cəmiyyətində də birmənalı qarşılanmır. Bu da həqiqətdir. Azərbaycan cəmiyyəti, cəmiyyətin mütləq əksəriyyəti o fikirdədir ki, ancaq Dağlıq Qarabağ məsələsinin həlli ilə bərabər Türkiyə-Ermənistan sərhədləri açılmalıdır. Eyni zamanda, Türkiyədə də bu məsələ geniş diskussiyalara gətirib çıxarıb və bu diskussiyalar bəzi hallarda çox gərgin keçir. Yəni ortalıqda hələ heç nə yoxdur. Ancaq artıq, görün, nə qədər mənfi fəsadlar yaşanır. Ermənistanda bu məsələyə böyük etiraz vardır. Azərbaycanın da ictimai fikri bizim üçün bəllidir. Türkiyənin özündə bu məsələ birmənalı qarşılanmır. Amma hələ ki, ortalıqda bir şey yoxdur. İmzalanacaq protokolların məclis tərəfindən təsdiqi də qeyri-müəyyəndir. Ona görə bölgədə hər bir addım ölçülüb-biçilməlidir, çox böyük təhlillər aparılmalıdır, proqnozlar verilməlidir. Proqnozlar reallıqlar əsasında verilməlidir. Biz elə etməliyik ki, bölgənin problemləri həll olunsun. Ancaq, bəzi hallarda biz görürük ki, bölgədə yaşanan problemlər daha da dərinləşir. Ancaq bir şey də var, o da ondan ibarətdir ki, ilk dəfə hələ fevral ayında Ermənistan mətbuatında Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilə əlaqədar dərc edilən məqalələr bir məqsədi güdürdü: Türkiyə-Azərbaycan münasibətlərinə xələl gətirilsin. Ancaq bu gün Türkiyə-Ermənistan prosesinin davamı artıq Ermənistanda çox ciddi fəsadlara gətirib çıxarıb. Dediyim kimi, daxili vəziyyət gərginləşib, Ermənistan-diaspor münasibətləri pozulub.

-Cənab Prezident, məlumdur ki, Ermənistan işğalçı siyasətinə görə təcrid olunmuş vəziyyətdədir və əgər Ermənistan-Türkiyə sərhədləri açılarsa, Sizcə bu, Ermənistanda iqtisadi canlanmaya gətirib çıxara bilərmi?

-Bilirsiniz, Ermənistan iqtisadiyyatı hələ böhrandan əvvəl də çətin vəziyyətdə idi. Orada iqtisadi perspektivlər də o qədər ürəkaçan deyildir. Həm bazarın məhdud olması, həm yerli istehsalın o qədər də inkişaf etməməsi və həm də investisiya baxımından Ermənistan o qədər də cəlbedici ölkə deyildir. Coğrafi vəziyyət, xüsusilə Azərbaycan və Türkiyə sərhədlərinin bağlı olması əlbəttə ki, çox böyük iqtisadi çətinliklər yaratmışdır. Böhranlı vəziyyətdə isə bu, özünü daha da qabarıq şəkildə büruzə verir. Rəsmi statistikaya görə, bu il Ermənistan iqtisadiyyatı təxminən 20 faiz aşağı düşübdür. Ona görə, bir o qədər də yaxşı vəziyyətdə olmayan iqtisadiyyatı canlandırmaq çox çətin olacaqdır.

Türkiyə-Ermənistan sərhədlərinin açılması daha çox mənəvi xarakter daşıyır. Eyni zamanda, müəyyən dərəcədə, əlbəttə, iqtisadiyyatın fəallaşmasına gətirib çıxara bilər. Ancaq belə deyərdim, bu, elə bil ki, bir oksigen maskasıdır. Oksigen maskası kömək edə bilər, oksigen maska ilə nəfəs almaq olar, ancaq normal yaşamaq mümkün deyildir.

-Cənab Prezident, bu sualımız mövzuya aid olmasa da, böyük maraq doğurur. Sualımız Türkiyə ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıqla bağlıdır. Bildiyiniz kimi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan may ayında Bakıda səfərdə olarkən qeyd etmişdi ki, hazırda mövcud qaz qiymətləri ədalətli deyildir. Bu qiymətlərin ədalətli olması üçün hansı işlər görülüb?

-Bəli, siz düzgün deyirsiniz. Hörmətli cənab Baş nazir Bakıda olarkən belə də dedi. Dedi ki, qiymətlər ədalətli deyil və biz çalışırıq ki, bu qiymətləri normal səviyyəyə gətirək. Bizim istəyimiz və danışıqlarda tutduğumuz mövqe beynəlxalq təcrübəyə əsaslanır. Bölgədə, yaxud da ki, dünyada başqa ölkələr arasında bu alqı-satqı məsələləri necə həll olunursa, bizim aramızda da eyni qaydada öz həllini tapmalıdır. Əfsuslar olsun ki, hələ bir nəticə yoxdur. Qaz alqı-satqısı və qaz tranziti ilə bağlı danışıqlarda üç əsas məsələ vardır. Birinci məsələ qiymətdir, hansı ki, ədalətli olmalıdır. Biz bunu gözləyirik ki, ədalətli qiymət haqqında razılaşma tezliklə öz həllini tapacaqdır. İkinci məsələ gələcəkdə Türkiyəyə veriləcək qazın miqdarıdır. Bildiyiniz kimi, bu il Türkiyəyə təqribən 7 milyard kubmetr Azərbaycan qazı ixrac edilib. Hələ ki, ədalətli olmayan qiymətlə.

“Şahdəniz” layihəsinin ikinci fazasından çıxarılacaq qazın, eyni zamanda, Dövlət Neft Şirkəti tərəfindən digər yataqlardan çıxarılan və çıxarılacaq qazın hansı hissəsi Türkiyə bazarına çatdırılacaqdır? Biz bunu da müəyyən etməliyik. Bizim üçün, hər bir başqa ölkə üçün, eyni qaydada ixracımızın şaxələndirilməsi çox vacibdir. Biz neft sahəsində buna nail ola bilmişik. Ona görə bizim neftimiz müxtəlif yollarla dünya və Avropa bazarlarına çıxarılır. Biz qaz sahəsində də mövcud olan bütün qaz kəmərlərimizdən istifadə etməliyik. Əlbəttə, Türkiyə bazarı bizim üçün çox maraqlıdır.

Bildiyiniz kimi, Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq başlanır və əminəm ki,

gələcəkdə bu, çox uğurlu əməkdaşlıq ola bilər.İran tərəfindən verilən təkliflər əsasında danışıqlar aparılır. İran bazarı da bizim üçün çox maraqlıdır. Azərbaycan qazının Türkiyə ərazisindən Avropa İttifaqı bazarına çıxarılması üçün də səylər göstərilir - həm Azərbaycan, həm Avropa ölkələri tərəfindən. Avropa İttifaqına üzv olan ölkələrlə ikitərəfli əsasda çox ciddi danışıqlar aparılır. Yunanıstan, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və digər ölkələrlə danışıqlar aparılır. Yəni Azərbaycanda kifayət qədər qaz resursları vardır. Bu, bizim böyük sərvətimizdir. Ancaq minimum təsdiq edilmiş qaz resurslarımız 2 trilyon kubmetr səviyyəsindədir. Amma real miqdar ondan ən azı 2 dəfə çoxdur.
Biz gərək bu qazı ixrac edək. Bunu ixrac etmək üçün gərək, çox böyük investisiyalar qoyulsun. "Şahdəniz" layihəsinin ikinci fazasına nəzərdə tutulmuş investisiyaların həcmi təxminən 20 milyard dollar səviyyəsindədir. Bu investisiyaları qoymaq üçün biz və bizim tərəfdaşlarımız, konsorsiumun üzvləri bilməliyik ki, bu qazı hara satacağıq. Tarif şərtləri necə olacaq, qiymət necə olacaq, biz bunu hansı miqdarda satacağıq.
Üçüncü məsələ isə, - yəni birinci qiymət, ikinci miqdar, üçüncü tarif haqlarıdır.Qiymət kimi tarif haqları da ədalətli olmalıdır və bölgədə mövcud olan bütün başqa tarif haqları ilə uzlaşmalıdır. Bax, bu üç məsələdə əfsuslar olsun ki, biz hələ Türkiyə tərəfi ilə danışıqlarda bir nəticəyə gələ bilməmişik. Mən bir daha demək istəyirəm ki, biz danışıqları xoş niyyətlə aparırıq. Ancaq bununla bərabər, danışıqlarda müzakirə edilən məsələlər beynəlxalq təcrübəyə uyğun şəkildə öz həllini tapmalıdır. Belə olan halda Azərbaycan qazı Türkiyəyə daha da böyük həcmdə ixrac ediləcəkdir.
-Təşəkkür edirik, cənab Prezident!
-Sağ olun.

**12-13.10.2009 İordaniyaya rəsmi səfər**




Oktyabrın 12-də Prezident İlham Əliyev İordaniya Haşimilər Krallığına səfərə yola düşmüşdür.
Səfərin ilk günü İordaniya kralının Al Hummar sarayında Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə İordaniya Kralı II Abdullah və xanımı Raniyə arasında birgə görüş keçirilmişdir. Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmışdır. Dövlət başçıları yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm əhəmiyyətini qeyd etmişlər. Prezident İlham Əliyev və Kral II Abdullah ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etmişlər.
Səfər çərçivəsində Prezident İlham Əliyevin və Kral II Abdullahın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Prezident İlham Əliyev ölkələrimiz arasında güclü siyasi əlaqələrin ikitərəfli əməkdaşlığı genişləndirməyə hərtərəfli zəmin yaratdığını vurğuladı. Dövlət başçısı İordaniya Kralı II Abdullahın Azərbaycana rəsmi səfərinin əlaqələrin inkişafında vacib rol oynadığını dedi. Prezident İlham Əliyev İordaniyanın beynəlxalq təşkilatlarda Azərbaycana verdiyi dəstəyi yüksək qiymətləndirdi, səfər zamanı imzalanacaq sənədlərin əlaqələrimizin möhkəmlənməsinə əlavə imkanlar açacağını söylədi. İki ölkənin iqtisadi əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edən Prezident İlham Əliyev, bu baxımdan hökumətlərarası iqtisadi komissiyasının işinin əhəmiyyətini vurğuladı.



**18-20.10.2009 İsveçrəyə rəsmi səfər**




Oktyabrın 18-də Prezident İlham Əliyev İsveçrəyə rəsmi səfərə yola düşmüşdür. Həmin gün Prezident İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın sürətlə inkişaf etdiyini, bu sahədə geniş potensialın olduğunu deyən Prezident İlham Əliyev güclü siyasi əlaqələrimizin mövcudluğunu diqqətə çatdırdı. Dövlət başçısı dedi ki, enerji sahəsində əməkdaşlığımız uğurla gedir, qeyri-enerji sahəsində yaxşı imkanlar vardır və bunu inkişaf etdirmək lazımdır. Prezident İlham Əliyev İsveçrədə Azərbaycan Mədəniyyət Günlərinin əhəmiyyətini vurğuladı. Dövlət başçısı ikitərəfli və regional məsələlərlə bağlı siyasi məsləhətləşmələrin bundan sonra da davam etdirilməsinin əhəmiyyətinə toxundu. Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Oktyabrın 19-da Prezident İlham Əliyev İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Alain Berset ilə görüşmüşdür. Görüşdə Prezident Əliyev söyləmişdir ki, iki ölkə arasında əlaqələr çoxşaxəlidir və müxtəlif sahələr üzrə irəliləyişlər var. Dövlət başçısı bildirdi ki, hökumətlərarası münasibətlər yaxşı səviyyədədir. Keçən il İsveçrə Prezidentinin Azərbaycana, indi isə Azərbaycan Prezidentinin İsveçrəyə səfəri əlaqələrimizi daha da möhkəmləndirir. Son illərdə münasibətlərimizin inkişafında sürətli dinamika vardır ki, bu da hər iki tərəfin maraqlarına cavab verir. Prezident İlham Əliyev iqtisadi münasibətlərin inkişaf etdiyini, bu sahədə qarşılıqlı maraqlar əsasında yeni layihələrin həyata keçirildiyini qeyd etdi və ikitərəfli münasibətlərimizi yüksək qiymətləndirdi.

Oktyabrın 19-da İsveçrənin paytaxtı Berndə Azərbaycan Mədəniyyət Günlərinin rəsmi açılışı olmuşdur. Mərasimdə Prezident İlham Əliyev və xanımı, İsveçrə Prezidenti Hans-Rudolf Merts və xanımı iştirak etmişlər. Tədbirdə çıxış edən Prezident İlham Əliyev yüksək qonaqpərvərliyə görə təşəkkür etdi. Bildirdi ki, Azərbaycan Prezidentinin İsveçrəyə ilk rəsmi səfəri uğurla keçir. "Biz müxtəlif sahələrdə əlaqələrimizi intensivləşdiririk", - deyən Azərbaycan Prezidenti qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Bildirdi ki, biz bir-birimizə real tərəfdaş kimi baxırıq və ikitərəfli layihələr bizi daha sıx bağlayacaqdır. Dövlət başçısı qeyd etdi ki, bir-birimizi daha yaxından tanımağın ən yaxşı yolu mədəniyyətdir. Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, yüksək milli dəyərləri vardır və biz onları qoruyub saxlayırıq. Azərbaycan iqtisadi inkişafına görə dünyada lider ölkələrdəndir. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, İsveçrədə Azərbaycan Mədəniyyət Günləri ölkələrimizin daha da yaxınlaşmasına geniş imkan verəcəkdir.

Səfərin son günündə Prezident İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin mətbuat konfransı olmuşdur.

Prezident İlham Əliyevin İsveçrəyə rəsmi səfərinə dair birgə mətbuat konfransında dövlət başçılarının bəyanatları.

İsveçrə Prezidenti Hans-Rudolf Mertsin bəyanatı

- Xanımlar və cənablar sizi salamlayıram.

Mən böyük məmnuniyyətlə və şərəf hissi ilə İsveçrəyə rəsmi səfərə gəlmiş Zati-aliləri Azərbaycan Prezidentinə, onu müşayiət edən üç nazirə və digər mühüm iştirakçılara "Xoş gəlmisiniz" deyirəm. İki ölkə arasında bir çox oxşarlıqlar vardır. Birincisi, onlar Şərq ilə Qərbin kəsişməsində, müxtəlif mentalitetlərin və dillərin qovuşduğu məkanda yerləşir. Hər iki ölkə siyasi və iqtisadi sahələrdə müstəqillik və sabitlik uğrunda mübarizə aparır. Bunları nəzərə alaraq, biz sıx təmaslar qurmuşuq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra həmin əlaqələri möhkəmləndirməyə başlamışıq. Azərbaycan da İsveçrə kimi, heç bir hərbi təşkilat və ya ittifaqda iştirak etmir. Digər tərəfdən, ölkələrimiz beynəlxalq təşkilatlarda, xüsusən də Beynəlxalq




Valyuta Fondunda əməkdaşlıq edir. Azərbaycan İsveçrənin bu təşkilatda sədrlik etdiyi mühüm qrupun üzvüdür. Bu gün biz bir sıra məsələləri müzakirə etdik. Nəzərə alsaq ki, əlaqələrimiz artıq təşəkkül tapmışdır, münasibətlərimizi bundan sonra da möhkəmləndirməli və dərinləşdirməliyik. Mədəniyyət sahəsinə gəldikdə, bu axşam Berndə rəsmən açılışı olacaq İsveçrədə Azərbaycan Mədəniyyət Günlərini səbirsizliklə gözləyirik. İqtisadiyyatlarımızın, iqtisadi münasibətlərimizin inkişafı bizim üçün vacibdir. Məsələn, enerji sahəsində iş birliyimiz vardır. Miqrasiya sahəsində də danışıqlar davam edir. Başqa sözlə desək, ölkələrimiz arasında problem yoxdur. Bizim aramızda dostluq vardır. Biz bu gün səhər görüşlərimizi bu ruhda keçirdik və ölkələrimiz arasında əlaqələrimizi eyni tərzdə inkişaf etdirmək əzmindəyik. Bu sözləri söyləyərək, cənab Prezident, mən Sizi ölkəmizdə bir daha səmimi qəlbdən salamlayıram.

Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Çox sağ olun, cənab Prezident.

Hörmətli cənab Prezident,

Hörmətli xanımlar və cənablar,

Əvvəlcə, cənab Prezident, gözəl ölkənizə səfər etmək üçün mənə göndərdiyiniz dəvətə, mənə, o cümlədən nümayəndə heyətimin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən Azərbaycan Prezidentinin İsveçrəyə ilk rəsmi səfərini ikitərəfli əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addım hesab edirəm. Münasibətlərimiz çox uğurla inkişaf edir. Bu ilin əvvəlində biz Sizinlə Davosda görüşdük və maraqlı müzakirələrimiz oldu. Bu gün isə, biz dialoqumuzu davam etdiririk. Bu dialoq bir çox sahələri əhatə edir. Artıq bir çox yaxşı nəticələr vardır və bu, gələcəkdə də belə ola bilər. Münasibətlərimizin gələcəyi çox perspektivlidir. Qeyd etmək istərdim ki, son bir neçə il ərzində əlaqələrimiz dinamik şəkildə inkişaf etmişdir. Prezidentlərin səfərləri, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, İsveçrə və Azərbaycan parlamentlərində dostluq qruplarının yaradılması, İsveçrədə Azərbaycanın Mədəniyyət Günləri ikitərəfli əlaqələrin çox mühüm elementləridir. İsveçrə bizim üçün yaxın tərəfdaş, dost ölkədir. Bu gün, cənab Prezident, yaratdığınız mühit əsl dostluq mühitidir. Biz ikitərəfli əlaqələrə aid bir çox mühüm məsələləri müzakirə etdik. Onların inkişaf yollarını araşdırdıq. İsveçrə və Azərbaycanda qarşılıqlı sərmayə layihələrinin həyata keçirilməsi ətrafında fikir mübadiləsi apardıq. Ticarət dövriyyəmiz sürətlə artır. Beynəlxalq maliyyə böhranına baxmayaraq, iqtisadi münasibətlərimiz uğurla inkişaf edir.

Bu gün biz regional inkişafın mühüm məsələlərini, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə etdik. Mən cənab Prezidentə danışıqlar prosesində baş verən son hadisələr haqqında məlumat verdim. Enerji əməkdaşlığımıza aid məsələləri cari ilin əvvəlində müzakirə etmişdik. Bu mövzu bu gün və sabah da nəzərdən keçiriləcəkdir. Bu sahədəki əlaqələrimizin böyük potensialı vardır. Avropada enerji təhlükəsizliyi ilə bağlı ümumi baxışlarımız mövcuddur. Nəhəng neft və qaz ehtiyatlarına malik olan Azərbaycan öz enerji daşıyıcılarını Avropadakı tərəfdaşlarına tezliklə çatdırmağa hazırdır. Bu məsələdə ölkələrimizin qarşılıqlı maraqları "Cənub dəhlizi" adlanacaq yeni nəql marşrutunun formalaşmasına yardım edə bilər. Əminəm ki, gələn illər ərzində münasibətlərimiz uğurla inkişaf edəcəkdir. Onlar bir çox sahələrdə öz əksini tapacaqdır. Çünki bunun üçün hər bir şərait vardır. Siyasi iradə, güclü siyasi təmaslar, iqtisadiyyatlarımızın bir-birinə cəlbedici olması və münbit sərmayə şəraiti mövcuddur. Müstəqil siyasətə qəti sadiqliyimiz, müstəqil siyasəti aparmaq bacarığı, coğrafi mövqeyimiz, xalqlarımızın və ölkələrimizin rifahı naminə daha sıx əlaqələri qurmaq arzusu vardır. Mən aparılmış müzakirələrdən çox məmnunam. Bir neçə saatlıq söhbətimiz oldu. Görüşümüz olduqca faydalı idi. Bu görüş danışıqların ənənəvi mövzusu olan məsələlərə diqqət yönəltməyə və gələcəkdə həll edəcəyimiz yeni vəzifələrə nəzər salmağa imkan verdi. Cənab Prezident, dəvətinizə və qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

**11-13.11.2009** **Belarusa rəsmi səfər**




Noyabrın 11-də Prezident İlham Əliyev Belarusa rəsmi səfərə yola düşmüşdür. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü zamanı Prezident İlham Əliyev səmimi qəbulə görə təşəkkür edərək demişdir:

- Çox sağ olun, hörmətli Aleksandr Qriqoryeviç. İlk növbədə, Sizin ölkəyə yenidən rəsmi səfərə dəvətə görə sağ olun. Mən yenidən qonaqpərvər Belarus torpağında olmağıma və fəal dialoqumuzu davam etdirməyə görə şadam. Ölkələrimiz arasında münasibətlər güclü, dinamik və Sizin qeyd etdiyiniz kimi, çox səmərəli inkişaf edir. Çox mühüm nəticələr əldə edilmişdir. Nisbətən qısa müddətdə biz rəsmi səfərlər etmişik. Bu yaxınlarda, səfər ərəfəsində mən də materiallara baxmışam. Son bir neçə ildə hökumətlərimizin başçıları müvafiq surətdə Belarusa və Azərbaycana üç dəfə səfər etmişlər. Beləliklə, çox səmərəli dialoq aparılır və qərarlar praktiki olaraq həyata keçirilir. Bizim aramızda ortaq cəhətlər çoxdur və bu keyfiyyətlərdən biri məhz qəbul edilmiş qərarların yerinə yetirilməsində məsuliyyət hissidir. Mən də çox şadam ki, razılığa gəldiyimiz bütün məsələlər uğurla, özü də qısa müddətdə və keyfiyyətlə həyata keçirilir. Bu, əlbəttə, ölkələrimiz arasında etimad səviyyəsini qat-qat artırır və həm də yeni perspektivlər açır. Nisbətən yaxın vaxtlarda, cəmi üç il bundan əvvəl Belarusda Azərbaycan və Azərbaycanda Belarus səfirlikləri açılmışdır. Lakin bu müddət ərzində biz çox böyük yol keçmişik. Böhranlı ildə əmtəə dövriyyəsinin artırılması barədə Sizin qeyd etdiyiniz fakt yəqin ki, tənəzzül deyil, tərəqqi prosesi gedən nadir hallardan biridir. Bütün bunlar nikbinlik doğurur. Əminəm ki, biz birgə fəaliyyətimizi səylə davam etdirəcək, qarşılıqlı siyasi əlaqələri gücləndirəcək, yeni iqtisadi layihələri həyata keçirəcəyik. Mən buraya bizim iqtisadiyyatın demək olar ki, bütün sektorlarını əhatə edən nazirlərdən və Baş nazirin müavinindən ibarət böyük bir nümayəndə heyəti ilə gəlmişəm. Ümid edirəm ki, bu səfərin yekunlarına əsasən biz yeni konkret qərarlar qəbul edəcək, yeni layihələri daha səmərəli şəkildə həyata keçirəcək, köhnə layihələri davam etdirəcək, tərəfdaşlığı möhkəmləndirəcəyik. Sizinlə şəxsi planda görüşlərimiz, həmçinin mənə də çox xoşdur. Sizin qeyd etdiyiniz kimi, biz beynəlxalq tədbirlərdə tez-tez görüşürük, ünsiyyət saxlamağa həmişə vaxt tapırıq. Lakin rəsmi səfər tamam başqa formatdır. O, həm də bizim ikitərəfli əlaqələrin inkişafına verdiyimiz əhəmiyyəti vurğulayır.

Qonaqpərvərliyə görə, Sizə bir daha təşəkkür edirəm. Minskin sürətlə inkişafını görməyə çox şadam. Mən burada üç il bundan əvvəl olmuşam və bu gözəl şəhərin, Sizin ölkənin necə dinamik inkişaf etdiyini görürəm. Bu münasibətlə Sizi ürəkdən təbrik edirəm.

Təkbətək görüş başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Geniş tərkibdə danışıqların sonunda Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur. Prezident İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko Birgə Bəyannaməni imzaladılar. "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarusun təhsil naziri Aleksandr



Radkov imzaladılar. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında 2010-2011-ci illərdə təhsil sahəsində əməkdaşlıq üzrə sazişin həyata keçirilməsi barədə Protokol"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun təhsil naziri Aleksandr Radkov imzaladılar. "Azərbaycan Dövlət Sərhəd Xidməti və Belarus Respublikası Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun xarici işlər naziri Sergey Martınov imzaladılar. "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun xarici işlər naziri Sergey Martınov imzaladılar. "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqələrə dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarus Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vadim Zaytsev imzaladılar.

**13.11.2009 Bolqarıstana işgüzar səfər**




Noyabrın 13-də Prezident İlham Əliyev Bolqrıstana işgüzar səfərə yola düşmüşdür. Həmin gün Prezident İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. İqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi. Dövlət başçıları Azərbaycan-Bolqarıstan münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər. Görüşdə, həmçinin regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Görüşün sonunda Prezidentlər İlham Əliyevin və Georgi Pırvanovun iştirakı ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur. "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikasının İqtisadiyyat, Enerji və Turizm Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Bolqarıstanın iqtisadiyyat, enerji və turizm naziri Trayço Traykov imzaladılar. "Bolqarıstanın "Bulqartransqaz" Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında təbii qazın nəqli sahəsində qarşılıqlı Anlaşma Memorandumu"nu "Bulqartransqaz"ın icraçı direktoru İvan Drenoviçki və ARDNŞ-in vitse-prezidenti Elşad Nəsirov imzaladılar.

Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanma mərasimi başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun birgə mətbuat konfransı keçirilmişdir.

Bolqarıstan Respublikasının Prezidenti Georgi Pirvanov bəyanatla çıxış edərək dedi:

-Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə keçirdiyim görüşdən olduqca məmnun qaldığımı bildirmək istəyirəm.Mən onu deyə bilərəm ki, bu gün imzaladığımız iki sənəd əvvəlcə bu istiqamətdə göstərdiyimiz səylərin yekunudur. Biz bu gün buna nail olduq və münasibətlərimizə yeni keyfiyyət gətirdik. Aramızda fəal siyasi dialoq mövcuddur. Eyni zamanda, iqtisadi sahədə əməkdaşlıq meyillərini görürük. Biz beynəlxalq təşkilatlar, o cümlədən Avropa və Avratlantika təsisatları çərçivəsində fəal şəkildə əməkdaşlıq edirik. Bolqarıstan Şərqi Avropada həyata keçirilən cari layihələrin tanıdılmasında səylərini əsirgəməyəcək, xüsusən də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın dərinləşməsində və gücləndirilməsində fəal amil olaraq qalacaqdır. Kütləvi informasiya vasitələrinin nümayəndələri yaxşı bilirlər ki, Azərbaycan energetika sahəsində bizim yaxın tərəfdaşımızdır.Bu gün biz olduqca mühüm sənədləri imzaladıq. Bu sənədlər əsasında nəinki Bolqarıstan, o cümlədən digər Şərqi Avropa ölkələri üçün təchizatın




şaxələndirilməsi ilə bağlı yeni imkanlar açılır. Sazişdə qeyd olunduğu kimi, Bolqarıstana 1 milyard kubmetr həcmində təbii qaz nəql ediləcəkdir. Bu məsələ Bolqarıstanın qazpaylayıcı sistemi Yunanıstanın qazpaylayıcı sisteminə tam birləşdiriləndən sonra baş tutacaqdır. Siz bildiyiniz kimi, indi biz çox səy göstəririk ki, Azərbaycanda hasil edilən qaz daha sonra sıxılmış formada Yunanıstan vasitəsilə Bolqarıstana da çatdırılsın.Bu layihə strateji əhəmiyyət daşıyır. Çünki bu layihənin həyata keçirilməsi bizim üçün çox vacib olan "Cənub dəhlizi"nin tam təmin edilməsinə töhfə verəcəkdir. Biz texniki əsaslandırma işlərinin olduqca qısa müddət ərzində və çevik surətdə həyata keçirilməsinin tərəfdarıyıq. Bilirik ki, bu baxımdan hər bir ölkə öz texniki əsaslandırma işlərini aparır. İndi isə istəyirik ki, bu işləri birgə aparaq. Qeyd etdiyimiz bu layihə digər layihələrlə müqayisədə o qədər də bahalı deyildir, böyük xərclər tələb etmir. Eyni zamanda, qeyd etmək istəyirəm ki, bu layihə həm dinamik, həm də qısa müddət ərzində həyata keçirilə bilən layihədir. Mən Azərbaycan Respublikasının Prezidentinə bu işlərdə şəxsən iştirak etdiyinə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu layihənin həyata keçirilməsində cənab Prezidentin verdiyi dəstək bizim üçün çox önəmlidir.

Prezident İlham Əliyev bəyanatla çıxış edərək dedi:

-Çox sağ olun, hörmətli cənab Prezident!

Mən, ilk növbədə, ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm.Bolqarıstanda olmağımdan çox məmnunam və xüsusilə bu gün apardığımız danışıqlar çox gözəl nəticələrə gətirib çıxarmışdır. Bizim ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bolqarıstan bizim üçün çox önəmli tərəfdaş və dost ölkədir. Qarşılıqlı səfərlərimizin də uğuru bir daha onu göstərir ki, biz bütün sahələrdə fəal əməkdaşlıq edirik. Həmişə olduğu kimi, biz bu gün sizinlə ikitərəfli münasibətlərin gündəliyini müzakirə etdik və gələcək əməkdaşlıq haqqında praktiki addımları müəyyənləşdirdik.Siyasi əlaqələrin yüksək səviyyədə olması əlbəttə ki, bütün başqa sahələrə də öz müsbət təsirini göstərir. Eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıqda Bolqarıstanın çox önəmli rolu vardır. Azərbaycanın Avratlantika strukturlarına inteqrasiya prosesində Bolqarıstan bizə həmişə dəstək vermişdir və buna görə Sizə çox minnətdarıq. Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının üzvü olmuşdur. Biz ümid edirik ki, bu proqram çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişlənəcəkdir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əlaqələr 2006-cı ildən başlanmışdır.2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzalanmışdır. Bu gün imzalanmış sənədlər hesab edirəm ki, geniş əməkdaşlığın geniş çərçivələrinə daxil ediləcəkdir. Enerji təhlükəsizliyi məsələləri son illər ərzində dünya gündəliyinin ən önəmli yerlərinə çıxmışdır. Azərbaycan öz tərəfindən enerji təhlükəsizliyi və enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərinin həlli işinə öz töhfəsini verir. Əminəm ki, bu gün imzalanmış sənədlər "Cənub dəhlizi"nin təşkil edilməsində öz müsbət rolunu oynayacaqdır. İmzalanmış sənədlər ikitərəfli xarakter daşıyır.Əminəm ki, Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq çox uğurlu olacaqdır. Bu əməkdaşlıq gələcəkdə genişlənəcək və başqa ölkələri həmin müsbət təşəbbüsə cəlb edəcəkdir. Azərbaycan qazının Bolqarıstana çatdırılması nəticəsində Azərbaycan Avropa İttifaqının qaz sahəsində tərəfdaşına çevriləcəkdir. Əminəm ki,



bu, Avropa İttifaqı üçün də, bizim üçün də vacibdir. Azərbaycanın qaz ehtiyatları çox genişdir. Ən minimal hesablamara görə təsdiq edilmiş ehtiyatlar təxminən 2 trilyon kubmetr ətrafındadır. Əlbəttə, biz istəyirik ki, bu qazı ixrac edək, resurslarımızı əmniyyətli və şaxələndirilmiş yollarla dünya bazarlarına çatdıraq. Hazırda Azərbaycan qazı müxtəlif istiqamətlərlə regional bazarlara çıxarılır və əlbəttə, biz istəyirik ki, tərəfdaşlarımızın sayı çoxalsın. Əminəm ki, Bolqarıstan bu işlərdə, Azərbaycan qazının Avropa qitəsinə idxal edilməsində çox önəmli rolunu oynayacaqdır. İmzalanmış sənədlər əsasında yaxın zamanlarda ikitərəfli işçi qrupu yaradılacaqdır. Əminəm ki, işçi qrupunun fəaliyyəti çox uğurlu olacaq və konkret layihələrin həyata keçirilməsi haqqında bizə qısa müddət ərzində təkliflər veriləcəkdir.
Hörmətli cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

**21-22.11.2009 Almaniyaya işgüzar səfər**




Noyabrın 21-də Prezident İlham Əliyev Almaniyaya işgüzar səfərə yola düşmüşdür. Noyabrın 22-də Münxen şəhərində Prezident İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan arasında görüş keçirilmişdir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

**24.11.2009 Rusiyaya işgüzar səfər**



Noyabrın 24-də Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti ilə Rusiyanın Ulyanovsk şəhərinə işgüzar səfərə yola düşmüşdür. Prezident İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev Volqa çayı üzərində salınmış yeni körpünün təntənəli açılış mərasimində iştirak etmişlər. Mərasimdə prezidentlər Dmitri Medvedev və İlham Əliyev çıxış etmişlər. Bildirilmişdir ki, bu körpünün tikilməsi barədə qərar o zaman SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyən Heydər Əliyevin bilavasitə iştirakı ilə qəbul edilmişdi.
Volqa çayı üzərində körpü-keçidin açılışından sonra Prezident İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev "Rusiya Federasiyası nəqliyyat kompleksinin innovasiya inkişafı" mövzusunda sərgi ilə tanış olmuşlar. Prezidentlər İlham Əliyev və Dmitri Medvedevə Rusiyanın nəqliyyat sisteminin müasir tələblərə uyğun inkişafına xidmət edəcək innovasiya layihələri nümayiş etdirilmişdir. Daha sonra bPrezident İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur. Görüşdə Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:
-Hörmətli İlham Heydər oğlu!
Sizi bir daha salamlamaq istərdim. Az qala deyəcəkdim Moskvada. Amma biz Moskvada deyilik, Sizinlə bərabər bizim mərkəzlərin birində - Ulyanovskdayıq. Bu məkan bir tərəfdən ənənəvi Rusiya məkanıdır, digər tərəfdən, Heydər Əliyevin fəaliyyəti ilə görünməz tellərlə bağlıdır. İndicə Sizinlə bərabər iki tədbirdə iştirak etdik, həmin tədbirlərlə əlaqədar Heydər Əliyevin adı, onun

xatirəsi Ulyanovsk şəhərinin, Ulyanovsk vilayətinin sakinləri üçün çox dəyərlidir. O cümlədən təməli 25 il bundan əvvəl qoyulmuş, lakin müxtəlif səbəblər üzündən tikintisi çox uzanmış körpünün açılışında olduq. Çox sağ olun ki, gəlmisiniz, körpünün açılışında iştirak etdiniz. Heydər Əliyevin adını daşıyan meydan və onun abidəsi – bütün bunlar həqiqətən bizim dostluğumuzun rəmzləridir. İndicə biz Sizinlə bu barədə danışırdıq. Bunlar postsovet məkanında dövlətlərin münasibətlərini necə qurmaq lazım olmasının rəmzləridir. Məncə bu, çox yaxşı haldır ki, Sizinlə təkcə paytaxtlarda, təkcə Moskvada, Bakıda və ya hər hansı başqa iri şəhərlərdə deyil, həm də bizim ucqarlarda görüşə, dövlətlərarası iqtisadi münasibətlərimizi, regional problemləri, o cümlədən mürəkkəb regional problemləri müzakirə edə bilirik. Ulyanovsk böyük şəhərdir, bunu Sizinlə bərabər yəqin etdik. Buna görə də sağ olun ki, gəlmisiniz. Sizinlə təqdimat tədbirlərindən əlavə söhbətlər üçün daha bir ayrıca gündəlik vardır. Sizi bir daha salamlayıram.
Azərbaycan Prezidenti İlham Əliyev təşəkkür edərək dedi:
-Çox sağ olun, Dmitri Anatolyeviç. İlk növbədə, məni Ulyanovska dəvət etdiyinizə görə, bugünkü günə görə sağ olun. Şübhəsiz, bu gün ölkələrimiz arasında münasibətlərin tarixinə daxil olacaqdır. Çünki bu gün biz həm Ulyanovsk sakinlərinə, həm də bizim vətəndaşlara çox əziz olan tədbirlərdə birgə iştirak etmişik. Sovet dövlətinin inkişafının Heydər Əliyevin adı ilə bağlı səhifələri çoxdur. O, hökumət sədrinin müavini olduğu dövrdə dəfələrlə buraya gəlmişdir. Bu gün artıq dediyim kimi həm xoş günlərdə, həm də ağır günlərdə o, həmişə xalqın yanında idi. Burada onun xatirəsini əziz tuturlar. Mən bunu bu gün bu şəhərin vətəndaşları ilə, sakinlərlə ünsiyyət zamanı gördüm. Bu, çox dəyərli məqamdır. Bu, bizim münasibətlərin göstəricisi, bu münasibətlərin inkişaf səviyyəsinin göstəricisidir. Mənə çox xoşdur ki, bu münasibətlər olduqca dinamik, səmərəli inkişaf edir. Biz həm rəsmi səfərlər çərçivəsində, həm də bu cür qısa, lakin mahiyyətcə heç də az məhsuldar olmayan işgüzar səfərlərin gedişində tez-tez görüşürük. Mənim fikrimcə, bu gün biz ikitərəfli münasibətlərə, regional inkişafa dair bütün mühüm məsələləri, ölkələrimizin gələcək münasibətləri ilə bağlı məsələləri müzakirə edəcəyik. Ümidvaram ki, bizim tərəfdaşlıq, mehriban qonşuluq, dostluq əlaqələri kimi səciyyələndirdiyimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi yollarını müəyyən edəcəyik. Bu gün şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə dediyim kimi, əgər bütün qonşular arasında münasibətlər bu cür olsaydı, dünyada problemlər olmazdı. Buna görə də ümid edirəm ki, bu gün də səmərəli işləyəcək və irəliyə doğru gedəcəyik. Dəvət üçün bir daha sağ olun.
Görüşdən sonra Prezident İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Ulyanovsk şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan meydanın açılış mərasimində iştirak etmişlər. Prezidentlər ulu öndər Heydər Əliyevin meydandakı abidəsi önünə gül dəstələri qoymuşlar. Sonra prezidentlər Azərbaycan diasporunun üzvləri ilə görüşmüş, onlarla qısa söhbət etmişlər.

**8-9.12.2009 Fransaya rəsmi səfər**




Dekabrın 8-də Prezident İlham Əliyev Fransa Respublikasına rəsmi səfərə yola düşmüşdür. Səfər çərçivəsində Prezident İlham Əliyev Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan iş adamları ilə görüşmüşdür. Dekabrın 9-da Prezident İlham Əliyev Fransa Milli Assambleyasının sədri Bernar Akoyer ilə görüşmüşdür. Görüşdə parlamentlərarası əlaqələrin uğurla tərəqqi etdiyini bildirən Bernar Akoyer parlametlərarası əməkdaşlığın bundan sonra da inkişafı üçün öz tərəfindən bütün səyləri əsirgəməyəcəyini dedi. Ölkələrimiz arasında digər sahələrdə də əlaqələrin uğurla inkişaf etdiyini diqqətə çatdıran B.Akoyer bildirmişdir ki, dünya iqtisadi böhranı dövründə Fransanın Azərbaycan ilə əlaqələri xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, bu səfər münasibətlərimizin inkişafında mühüm addım olacaqdır. Ölkələrimiz arasında münasibətlər dinamik inkişaf edir, geniş sahələri əhatə edir.




İkitərəfli münasibətlərimiz qarşılıqlı maraqlar üzərində qurulmuşdur və böyük perspektivlərə malikdir. Siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimiz güclənir. Parlamentlərarası əməkdaşlığa böyük əhəmiyyət veririk və bu səfər uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin perspektivlərini və həmin sahədə konkret addımları nəzərdən keçirmək üçün yaxşı imkan yaradır. İqtisadi sahədə də əlaqələrimizin durmadan inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev dedi ki, Fransa şirkətləri Azərbaycanda fəaldır. Fransa şirkətləri ilə neft-qaz, energetika və digər sahələrdə fəal əməkdaşlıq edirik. Dövlət başçısı energetika sahəsində görülən işlər, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında rolu və perspektivləri barədə danışdı. Fransa Milli Assambleyasının sədri Bernar Akoyer Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə maraqlandı. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların vəziyyəti və perspektivləri barədə söhbət açdı.

Həmin gün Prezident İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin Parisdə Yelisey sarayında görüşü olmuşdur. Fransa dövlətinin başçısı adından Azərbaycan Prezidentinin şərəfinə nahar verildi. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı. Fransa Prezidenti bildirdi ki, Azərbaycan yerləşdiyi regionda ən sabit, sürətlə inkişaf edən və gözəl perspektivləri olan ölkədir. Fransa belə bir dövlətlə əlaqələrini inkişaf etdirməkdə maraqlıdır. Dövlət başçıları iqtisadi sahədə, energetika və qeyri-neft sektorlarında əməkdaşlıq məsələlərini müzakirə etdilər. Bu sahələrdə əməkdaşlığın genişlənəcəyinə əminlik ifadə olundu. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini diqqətə çatdırdı və münaqişənin həlli ilə əlaqədar aparılan danışıqlar prosesi haqqında məlumat verdi.

Dekabrın 9-da Prezident İlham Əliyev Parisdə onun üçün ayrılmış iqamətgahda Fransa xarici işlər naziri Bernar Kuşner ilə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Fransa arasında müxtəlif sahələrdə, o cümlədən siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Azərbaycan Prezidentinin Fransaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından xüsusi önəm daşıdığı qeyd olundu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proseslərin hazırkı vəziyyətindən söhbət açılan görüşdə, regional və bir sıra beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Səfər çərçivəsində Prezident İlham Əliyev Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşmüşdür. Görüşdə parlamentlərarası əlaqələrin genişlənməsinin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı. Azərbaycan Prezidentinin Fransaya rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından böyük önəm daşıdığı bildirildi. Parlamentlərarası əlaqələrin möhkəmlənməsində dostluq qruplarının rolu qeyd edildi.

Ölkələrimizin qanunverici orqanlarının əməkdaşlığının əhəmiyyətindən danışılan görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Sonda dövlət başçısı Senatın xatirə kitabına ürək sözlərini yazdı.



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN XARİCİ QONAQLARLA GÖRÜŞÜ

01.10.2009 Prezident İlham Əliyev Çexiyanın Baş nazirinin müavini, müdafiə naziri Martin Bartakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

01.10.2009 Prezident İlham Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə Davamlı İnkişaf Sektorunun direktoru Piter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05.10.2009 Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədri general Tariq Məcidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05.10.2009 Prezident İlham Əliyev ABŞ-ın energetika nazirinin müavini Daniel Ponemanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

05.10.2009 Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir

06.10.2009 Prezident İlham Əliyev Slovakiyanın Konstitusiya Məhkəməsinin sədri İvetta Matsejkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14.10.2009 Prezident İlham Əliyev "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində Bakıda keçirilən İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransının nümayəndələrini qəbul etmişdir

15.10.2009 Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin İcra Aparatının rəhbəri İsfəndiyar Rəhim Məşayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

21.10.2009 Prezident İlham Əliyev Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İvealanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

22.10.2009 Prezident İlham Əliyev Bolqarıstanın xarici işlər naziri xanım Rumyana Jelevanı qəbul etmişdir

23.10.2009 Prezident İlham Əliyev ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir

28.10.2009 Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komissiyasının üzvlərini qəbul etmişdir

30.12.2009 Prezident İlham Əliyev Fələstin Muxtariyyətinin xarici işlər naziri Riyad Əl-Malkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02.11.2009 Prezident İlham Əliyev Yalta şəhərinin başçısı Sergey Braykonu qəbul etmişdir.

02.11.2009 Prezident İlham Əliyev Türkiyənin Quru Qoşunları Komandanı İşık Koşanerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

| | |
|---|---|
| 03.11.2009 | Prezident İlham Əliyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lü Kvanq Çulu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir |
| 04.11.2009 | Prezident İlham Əliyev Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Hamadun Tureni qəbul etmişdir |
| 04.11.2009 | Prezident İlham Əliyev Gürcüstan Patriarx Katalikosu II İlyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 05.11.2009 | Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Robert Bradkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir. |
| 05.11.2009 | Prezident İlham Əliyev Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 06.11.2009 | Prezident İlham Əliyev Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 06.11.2009 | Prezident İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli qəbul etmişdir |
| 06.11.2009 | Prezident İlham Əliyev Çeçenistan Respublikasının Prezidenti Ramzan Kadırovu qəbul etmişdir |
| 06.11.2009 | Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Robert Bradkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir |
| 10.11.2009 | Prezident İlham Əliyev Gürcüstanın ölkəmizdəki səfiri Nikoloz Natbiladzeni səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir |
| 11.11.2009 | Prezident İlham Əliyev Türkiyənin dövlət naziri Hayati Yazıcinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 11.11.2009 | Prezident İlham Əliyev İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir |
| 16.11.2009 | Prezident İlham Əliyev da Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ğəssan Yusuf əl-Zəvavinin etimadnaməsini qəbul etmişdir |
| 16.11.2009 | Prezident İlham Əliyev Avropa Komissiyasının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri səfir Roland Kobianın etimadnaməsini qəbul etmişdir |
| 16.11.2009 | Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 18.11.2009 | Prezident İlham Əliyev Azərbaycanda səfərdə olan Fransa Sahibkarlar Təşkilatının (MEDEF) nümayəndə heyətini qəbul etmişdir |

| | |
|---|---|
| 23.11.2009 | Prezident İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir |
| 23.11.2009 | Prezident İlham Əliyev ABŞ müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya məsələləri üzrə müşaviri xanım Selest Vallanderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 25.11.2009 | Prezident İlham Əliyev "Aqo" monitorinq qrupunun sədri, Rumıniyanın Avropa Şurası yanında daimi nümayəndəsi Stelian Stoyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 25.11.2009 | Prezident İlham Əliyev Polşanın milli müdafiə naziri Boqdan Klixin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |
| 01.12.2009 | Prezident İlham Əliyev Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyeri qəbul etmişdir |
| 01.12.2009 | Prezident İlham Əliyev Böyük Britaniyanın Yorq Hersoqu, şahzadə Endryunu qəbul etmişdir |
| 10.12.2009 | Prezident İlham Əliyev Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li Ci-Hanın etimadnaməsini qəbul etmişdir |
| 10.12.2009 | Prezident İlham Əliyev Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vunu qəbul etmişdir |
| 11.12.2009 | Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Robert Bradkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir |



# Azərbaycan Respublikasinin Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun 2009-cu ilin 4-cü rübü ərzində həyata keçirdiyi diplomatik fəaliyyət

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CƏNAB ELMAR MƏMMƏDYAROVUN XARİCİ SƏFƏRLƏRİ

**26 oktyabr 2009 Lüksemburq Böyük Hersoqluğuna işçi səfər**

Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının 10-cu iclasında iştirak etmək məqsədilə Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov 2009-cu ilin 26 oktyabr tarixində Lüksemburqa səfər etmişdir.

Səfər çərçivəsində ilk olaraq İsveçin Xarici işlər naziri cənab Karl Bildt, İspaniyanın Avropa məsələləri üzrə Dövlət Katibi cənab Dieqo Lopez Qarrido, Aİ-nin Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi cənab Xavyer Solana, Avropa Komissiyasının nümayəndələri və üç Cənubi Qafqaz ölkəsinin xarici işlər nazirlərinin birgə işçi səhər yeməyi keçirilmişdir. Görüş zamanı Avropa İttifaqı ilə Cənubi Qafqaz ölkələri arasında münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində əməkdaşlıq, xüsusilə də Aİ ilə assosiasiya sazişlərinin hazırlanması, habelə Cənubi Qafqaz regionunda mövcud münaqişələrin nizamlanması ətrafında fikir mübadiləsi aparılmışdır.

Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının keçirilmiş 10-cu iclasında Aİ-Azərbaycan münasibətlərinin ölkələrin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır. Görüşdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Brüsselə səfərinin Azərbaycan-Aİ əməkdaşlığına böyük təkan verdiyi xüsusi qeyd olunmuşdur. Şərq Tərəfdaşlığı Təşəbbüsü alqışlanaraq, bu proqramın Aİ ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəyi bildirilmişdir. Habelə, əməkdaşlığın daha da dərinləşməsi üçün assosiasiya sazişinin əhəmiyyəti vurğulanmışdır. Görüşdə Aİ ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq müzakirə olunmuş, Avropanın enerji təhlükəsizliyi, enerji daşıyıcılarının müxtəlifliyinin təminatında Azərbaycanın rolu qeyd olunmuşdur.

Səfər çərçivəsində nazir E.Məmmədyarov Lüksemburqun Deputatlar Palatasının Sədri Laurent Mosar ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Lüksemburq əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Tərəflər iki ölkə arasında münasibətlərin dinamik şəkildə inkişaf etdiyindən, xidmətlər, xüsusilə də, maliyyə-bank və nəqliyyat sahələrində uğurlu əməkdaşlıq nümunələrindən məmnunluqlarını bildirmişlər. Təmasların daha da genişləndirilməsi üçün qarşılıqlı səfərlərin intensivləşdirilməsi, ölkələrin mövcud iqtisadi imkanlarından daha səmərəli istifadə edilməsi, habelə mədəniyyətlərin qarşılıqlı təşviqi üçün müxtəlif tədbirlərin keçirilməsinin məqsədəuyğunluğu bildirilmişdir.

Səfər çərçivəsində nazir E.Məmmədyarovun son görüşü Fransanın Xarici işlər naziri cənab Bernar Kuşner ilə olmuşdur. Görüşdə Azərbaycan-Fransa əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, regional vəziyyət, xüsusilə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır.

**1-2 dekabr 2009 Yunanıstana işçi səfər**

2009-cu il 1-2 dekabr tarixlərində xarici işlər naziri E.Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 17-ci iclasında iştirak etmək üçün Afinada səfərdə olmuşdur. Səfərin ilk günü Afinaya səfəri çərçivəsində nazir E.Məmmədyarov Latviyanın xarici işlər naziri Maris Reikstints ilə görüşmüşdür. Tərəflər Azərbaycan-Latviya əməkdaşlığının cari vəziyyətini yüksək qiymətləndirmiş, əlaqələrin daha da dərinləşdirilməsi üçün siyasi, iqtisadi, humanitar və digər sahələrdə təmasların intensivləşdirilməsinin vacibliyini qeyd etmişlər. Nazir E.Məmmədyarovun növbəti görüşü İsrailin xarici işlər naziri Aviqdor Liberman ilə keçirilmişdir. Tərəflər Azərbaycan və İsrail xalqları arasında dostluq münasibətlərinin iki ölkə arasında əməkdaşlığın yüksələn xətlə inkişafı üçün əhəmiyyətli zəmin olduğunu vurğulamışlar. Görüşdə habelə, Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyət ətrafında da fikir mübadiləsi aparılmışdır. Nazir E.Məmmədyarovun növbəti görüşü ATƏT PA-nın Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerlə keçirilmişdir. Görüşdə əsas etibarilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı cari vəziyyət ətrafında fikir mübadiləsi aparılmışdır. Münaqişənin nizamlanması ilə bağlı əsas maneənin Azərbaycan ərazilərinin işğalı faktının olduğunu bildirən nazir E.Məmmədyarov münaqişənin nizamlanmasında müsbət irəliləyiş kimi ilkin mərhələdə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının vacibliyini bildirmişdir. Sonra nazir E.Məmmədyarov Estoniyanın xarici işlər naziri Urmas Paet ilə görüşmüşdür. Görüşdə iki ölkə arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Əməkdaşlığın gücləndirilməsi üçün yüksək səviyyəli səfərlərin mübadiləsinin vacibliyini bildirən tərəflər habelə, iki ölkə arasında konkret layihələrin həyata keçirilməsi üçün Avropa İttifaqının Şərq Tərəfdaşlığı təşəbbüsünün faydalı imkanlar açdığını bildirmişlər. Nazir E.Məmmədyarovun növbəti görüşü Türkiyənin xarici işlər naziri Əhməd Davutoğlu ilə keçirilmişdir. Görüş çərçivəsində iki ölkə arasında münasibətlərin bütün istiqamətləri üzrə ətraflı fikir mübadiləsi aparılmışlar. Görüşdə habelə, regional məsələlər, xüsusilə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması, Əfqanıstan mövzuları ətrafında ətraflı fikir mübadiləsi aparılmışdır. Nazir Ə.Davutoğlu regionda sülh və təhlükəsizliyin təmini üçün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının vacibliyini bildirmiş, yalnız Azərbaycanın əraziləri işğaldan azad olduqdan sonra Türkiyə və Ermənistan arasında imzalanmış protokolların ratifikasiyasının və müvafiq olaraq onların icra edilməsinin mümkünlüyünü bildirmişdir. Nazir E.Məmmədyarov həmçinin, Slovakiyanın xarici işlər naziri Miroslav Lajcak ilə görüşmüşdür. Görüşdə iki ölkə arasında əlaqələrin cari vəziyyəti və inkişaf perspektivlər ətrafında fikir mübadiləsi aparılmış, əlaqələrin ikitərəfli formatda, habelə Avropa İttifaqı çərçivəsində inkişaf etməsinin vacibliyi vurğulanmışdır. Əməkdaşlığın genişləndirilməsi üçün iki ölkə arasında hüquqi-normativ bazanın inkişaf etdirilməsinin vacibliyi bildirilmiş, bu istiqamətdə müzakirə mərhələsində olan sənəd layihələrinin razılaşdırılması prosesinin sürətləndirilməsinin əhəmiyyəti qeyd olunmuşdur. Həmin gün Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov, Ermənistan Respublikası xarici işlər naziri Eduard Nalbandyan və ATƏT-in Minsk Qrupu həmsədr ölkələri Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov, Fransanın xarici işlər naziri Bernard Kuşner, ABŞ dövlət katibinin müavini Ceyms Stainberqin birgə görüşü keçirilmişdir. Görüşdə tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının cari vəziyyəti və bu istiqamətdə atılacaq addımlar ətrafında müzakirə aparmışlar. Görüşün yekununa dair Minsk Qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərləri Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov, Fransanın xarici işlər naziri Bernard Kuşner, ABŞ dövlət katibinin müavini Ceyms Stainberqin birgə bəyanatı yayımlanmışdır. Bəyanatda münaqişənin nizamlanması prosesinin vacib elementi kimi tərəflər arasında imzalanmış Moskva Bəyannaməsi və Helsinki Yekun Aktında təsbit olunmuş əsas prinsiplər göstərilir. Afinaya səfərinin ikinci günü nazir E.Məmmədyarov ATƏT-in baş katibi Mark Perrin de Brichambaut ilə görüşmüşdür. Tərəflər Azərbaycanla ATƏT arasında təşkilatın fəaliyyətinin bütün istiqamətləri üzrə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmışlar.
Sonra nazir E.Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 17-ci iclasında çıxış etmişdir.

# ADDRESS

## by H.E. Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at the 17th meeting of the OSCE Ministerial Council Athens, 2 December 2009

Mr. Chairman,

Let me begin by extending my sincere appreciation to H.E. Mr. George Papandreou and all members of the OSCE Greek Chairmanship for excellent organization of this Ministerial Council meeting and successful conduct of the leadership of this Organization throughout the whole year. I would also like to cordially welcome our distinguished Kazakh colleague, my good friend Minister Kanat Saudabayev as the incoming OSCE Chairman-in-Office, and wish him every success in fulfilling this important and responsible task.

Ladies and Gentlemen,
Dear Colleagues,

Next year will mark the 35th anniversary of the founding document of the OSCE – the 1975 Helsinki Final Act, a benchmark document and the point of departure for all our subsequent OSCE commitments. In this regard, we welcome the intention of the incoming Kazakh Chairmanship to convene after ten years the meeting of Heads of States. Azerbaijan strongly believes that this meeting will provide a great opportunity for all participating States to reaffirm their strong commitment to the Principles of the Helsinki Decalogue.

We would like to highly commend the Greek Chairmanship for initiating a very important project, which took start at the informal meeting of the OSCE Foreign Ministers in the island of Corfu. The ensuing "Corfu process" in the form of informal discussions at the level of Ambassadors in Vienna has provided an important and needed platform for frank and open-minded exchange of views on the issues of the OSCE's agenda in all its dimensions. Though understanding that the continuous dialogue must not be constrained by artificial timeframe, hopefully the process will not stagnate and will evolve into process of restoration of trust and confidence among all participating States.

However, addressing the problems must not be confined only to discussing them. Concrete actions and political will are the best guarantees of success. Regardless of the capacity of the OSCE, quantity and quality of its acquis and mechanisms, the effectiveness of the Organization very much depends on the behavior and real willingness of its participating States. Therefore, the OSCE must turn into actionoriented Organization and its participating States should open a new page by reaffirming their adherence to the letter and spirit of the 1975 Helsinki principles and act in their full conformity.

Mr. Chairman,

The Armenia-Azerbaijan Nagorno-Karabakh conflict still remains a major source of instability and impediment to the economic development and integration of the entire region of the South Caucasus into the European and Euro-Atlantic architecture. As a result of this conflict almost 20% of the territory of Azerbaijan has been still occupied by Armenia, around 1 million ethnically cleansed Azerbaijani population has become internally displaced and refugees, thousands of Azerbaijani historical-cultural heritage items on the occupied territories devastated and looted.

This year was remarkable in terms of the intensiveness of the meetings between the Presidents of the both sides, and the detailed and in-depth discussions of the most important yet unresolved issues. I should admit that there are the positive dynamics through the latest talks and both sides together with the Minsk Group Co-chairs agreed to intensify negotiations. Azerbaijan maintains a position of constructiveness and stands for peaceful and cooperative coexistence of Armenian and Azerbaijani communities of Nagorno-Karabakh region of Azerbaijan. This will create basis for normalization of relations between Armenia and Azerbaijan. Providing self-governance for Nagorno-Karabakh within Azerbaijan will be a just and durable solution, as well as it can dramatically reduce tensions and challenges for peace and stability in the region.

We in Azerbaijan strongly believe that withdrawal of Armenian troops in a fixed time framework from the occupied territories of Azerbaijan will open a tremendous opportunity for the region, providing different environment of predictability, development and benefit for everyone and for the entire region. This is the core of the issue.

Thank you.

**10 dekabr 2009 Belçika Krallığına işçi səfər**

2009-cu il 8 dekabr tarixində Brüsseldə Şərq Tərəfdaşlığı Xarici İşlər Nazirlərinin 1-ci iclası keçirilmişdir. İclasda Azərbaycanı Xarici işlər naziri E.Məmmədyarov təmsil etmişdir. İclasda Avropa İttifaqı üzv ölkələrinin xarici işlər nazirləri, Avropa Komissiyası, Avropa İttifaqı Şurası, Avropa Parlamenti, Avropa Sərmayə Bankı, Avropa İttifaqının Regionlar Komitəsi və İqtisadi və Sosial Komitəsi, həmçinin Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynanın xarici işlər nazirləri iştirak etmişlər. İclasa sədrliyi hazırda Avropa İttifaqına sədrlik edən İsveçin Xarici İşlər naziri Karl Bildt etmişdir. İştirakçılar Şərq Tərəfdaşlığının hazırkı vəziyyəti, cari ilin may ayının 7-də Praqada keçirilmiş Şərq Tərəfdaşlığı Zirvə görüşü sonrası bu çərçivədə həyata keçirilmiş tədbirlər və gələcək planlar və layihələr barədə fikir mübadiləsi aparmışlar. İclas zamanı Şərq Tərəfdaşlığının çoxtərəfli ölçüsü çərçivəsində fəaliyyət göstərən 4 Platformanın 2009-2011-ci illər üçün İşçi Proqramları təsdiq olunmuşdur.
Nazir E.Məmmədyarov Azərbaycanda cəmiyyətin gündəlik həyatının bütün sahələrinin Avropa standartları, qanunvericiliyi və qaydalarına uyğun səviyyəyə yüksəldilməsinin, bunun qanunvericilik qaydasında qəbul olunmasının və tətbiq olunmasının Azərbaycan üçün xüsusi önəm kəsb etdiyini bildirmiş və Şərq Tərəfdaşlığının bu istiqamətə yönəldilməsinin vacibliyini qeyd etmişdir. Nazir bu sahədə Avropa İttifaqının üzvü olmayan Avropa ölkələrinin təcrübəsini nümunə olaraq göstərmiş və Azərbaycanın da bu ölkələr sırasında olmasını arzuladığını bildirmişdir. İclas zamanı digər tərəfdaş ölkələrin nümayəndələri ilə yanaşı nazir E.Məmmədyarov da Avropa İttifaqı ölkələri ilə viza asanlaşdırılmasının vacibliyini qeyd etmiş və Avropa İttifaqını bu sahədə ciddi addımlar atmağa çağırmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi barədə iştirakçılara məlumat verən nazir E.Məmmədyarov, münaqişəsinin hələ də davam etməsinin və Azərbaycanın ərazilərinin işğalının davam etməsinin Şərq Tərəfdaşlığının çoxtərəfli ölçüsünün səmərəli fəaliyyətinə və inkişafına maneə törətdiyini bildirmişdir.

**15 dekabr 2009 İran İslam Respublikasına işçi səfər**

14 dekabr tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov rəhbərli etdiyi nümayəndə heyət İran İslam Respublikasında rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində Nazir Elmar Məmmədyarov İran İslam Respublikasının Xarici İşlər Nazir Manuçehr Mottaki, İran İslam Respublikasının Təhlükəsizlik Şurasının sədri Səyid Cəlili və İran İslam Respublikasının Parlamentinin sədri Əli Laricani ilə görüşlər keçirmişdir. Səfər çərçivəsində nazir Elmar Məmmədyarovu İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad qəbul etmişdir. Görüşlər zamanı tərəflər Azərbaycan-İran əməkdaşlığının bütün istiqamətləri üzrə fikir mübadiləsi aparmışlar. Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ

münaqişəsinə toxunaraq, Azərbaycanın danışıqlarda tutduğu mövqe barədə məlumat vermişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini regionun təhlükəsizlik durumuna ciddi təsir edən amil kimi qiymətləndirən nazir Məmmədyarov, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tez bir zamanda həll edilməsinin regionun bütün dövlətlərinin marağında olduğunu vurğulamışdır.
İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşdə nazir E.Məmmədyarov ilk öncə Azərbaycan Respublikası Prezident cənab İlham Əliyevin Prezident M. Əhmədinejada səmimi salamlarını çatdırmış, ölkələrimiz arasında bütün sahələrdə və istiqamətlərdə mövcud sıx əməkdaşlıq məsələlərinə toxunaraq, bu əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyinin müsbət hal olduğunu vurğulamışdır. Öz növbəsində, İran Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə öz səmimi salamlarını çatdırmağı xahiş etmişdir. Prezident M.Əhmədinecad ölkələrimiz arasında əməkdaşlığın sıx və dərin tarixi köklərə söykəndiyini qeyd edərək, Azərbaycanın İrana beynəlxalq təşkilatlar çərçivəsində verdiyi dəstəyə görə minnətdarlığını bildirmiş, bunun əsl qardaşlıq nümunəsinin göstəricisi olduğunu demişdir. İranın regionda sülhün bərqərar olmasına dəstək verməyə hazır olduğunu deyən İran Prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həll edilməsini arzulamışdır.
Səfər çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə İran Milli Qaz İxrac Şirkəti arasında iki sənəd imzalanmışdır.

**25 dekabr 2009** **Türkiyəyə rəsmi səfər**

2009-cu il dekabrın 25-də Nazir E.Məmmədyarov Ankarada rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində cənab Məmmədyarov Türkiyə xarici işlər naziri Əhməd Davudoğlu ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüş keçirmişdir. Səfər çərçivəsində Nazir Məmmədyarov Türkiyənin prezidenti Abdulla Gül tərəfindən qəbul edilmiş, həmçinin Baş Nazir Rəcəb Tayyib Ərdoğan və Türkiyə Böyük Millət Məslisinin sədri Mehmet Əli Şahinlə görüşlər keçirmişdir. Görüşlərdə əsas mövzu regional problemlər, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi, Ermənistan-Türkiyə münasibətləri və s. məsələlər müzakirə obyekti olmuşdur.

## XARİCİ İŞLƏR NAZİRİ CƏNAB ELMAR MƏMMƏDYAROVUN XARİCİ QONAQLARLA GÖRÜŞÜ

05.10.2009 Nazir E.Məmmədyarov ABŞ-nın Enerji Nazirinin müavini Daniel Ponemanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

05.10.2009 Nazir Elmar Məmmədyarov Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Tarik Məcidi qəbul etmişdir

07.10.2009 Nazir E.Məmmədyarov İtaliyanın Azərbaycana yeni təyin olunmuş səfiri Mario Baldini etimadnamələrinin surətinin təqdim olunması ilə əlaqədar qəbul etmişdir

14.10.2009 Nazir E.Məmmədyarov Niderland Krallığının Azərbaycana yeni təyin olunmuş səfiri Jan Lukas İnayard Van Hoornu etimadnamələrinin surətinin təqdim olunması ilə əlaqədar qəbul etmişdir

15. 10.2009 Nazir E.Məmmədyarov Litvanın xarici işlər nazirinin müavini Evaldas İqnataviçusu qəbul etmişdir

15.10.2009 Nazir E.Məmmədyarov Qətər Dövlətinin Mədəniyyət və İrs Naziri Hamad əl-Kavarini qəbul etmişdir

| | |
|---|---|
| 22.10.2009 | Nazir Elmar Məmmədyarov Yunanıstanın Xarici İşlər nazirinin müavini Spiridon Kuvelisi qəbul etmişdir |
| 23.10.2009 | Nazir E.Məmmədyarov ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Tina Kaydanovu qəbul etmişdir |
| 23.10.2009 | Nazir Elmar Məmmədyarov Misir Ərəb Respublikasının Xarici İşlər nazirinin köməkçisi, səfir Mohamed Əl-Orabini qəbul etmişdir |
| 23.10.2009 | Nazir Elmar Məmmədyarov Moldova Respublikasının Dövlət naziri Viktor Bodünu qəbul etmişdir |
| 29.10.2009 | Nazir E.Məmmədyarov Azərbaycanda rəsmi səfərdə olan Fələstin Muxtariyyətinin Xarici İşlər naziri Riyad Əl-Malikini qəbul etmişdir |
| 03.11.2009 | Nazir E.Məmmədyarov Avstriyanın Azərbaycandakı səfiri Marius Kariqalis qəbul etmişdir. |
| 04.11.2009 | Nazir Elmar Məmmədyarov Avropa İttifaqının Nümayəndəliyinin Azərbaycana yeni təyin olunmuş rəhbəri, səfir Rolan Kobianı qəbul etmişdir |
| 04.11.2009 | Nazir E.Məmmədyarov Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfiri Lü Kvanq Çulu ölkəmizdə fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir |
| 10.11.2009 | Nazir E.Məmmədyarov Gürcüstanın Azərbaycan Respublikasındakı səfiri Nikolos Natbiladzeni ölkəmizdə fəaliyyət müddətinin bitməsi ilə əlaqədar qəbul etmişdir |
| 11.11.2009 | Xarici İşlər naziri Elmar Məmmədyarov İslam Konfransı Təşkilatının Baş Katibi İkmaləddəin İhsanoğlunu qəbul etmişdir |
| 11.11.2009 | Xarici İşlər naziri Elmar Məmmədyarov Suriya Ərəb Respublikasının Xarici İşlər nazirinin müavini Faisal Əl-Miqdadı qəbul etmişdir |
| 11.11.2009 | Xarici İşlər naziri Elmar Məmmədyarov Tacikistan Respublikasının Xarici İşlər nazirinin birinci müavini Abdullo Yuldaşevı qəbul etmişdir |
| 16.11.2009 | Nazir Elmar Məmmədyarov Küveyt Dövlətinin Azərbaycana yeni təyin olunmuş səfiri Ğəssan Yusuf əl-Zəvavi qəbul etmişdir |
| 17.11.2009 | Nazir Elmar Məmmədyarov Beynəlxalq Enerji Agentliyinin İcraiyyə Komitəsinin direktoru səfir Riçard Consu qəbul etmişdir |
| 18.11.2009 | Nazir E.Məmmədyarov ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisinin baş müşaviri Daniel Steyni qəbul etmişdir |
| 23.11.2009 | Nazir E.Məmmədyarov ABŞ-ın Müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya üzrə köməkçisinin müavini xanım Selest Uolanderi qəbul etmişdir |
| 25.11.2009 | Nazir E.Məmmədyarov "Aqo" monitorinq qrupunun sədri, Rumıniyanın Avropa Şurası yanında daimi nümayəndəsi Stelian Stoyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir |

| | |
|---|---|
| 25.11.2009 | Nazir E.Məmmədyarov Finlandiya Respublikasının Azərbaycan Respublikasındakı səyyar səfiri Petri Salonu qəbul etmişdir |
| 25.11.2009 | Nazir E.Məmmədyarov Koreya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Li Ci-Hanı qəbul etmişdir |
| 25.11.2009 | Nazir E.Məmmədyarov Moldova Respublikasının Azərbaycan Respublikasındakı səfiri İon Robunu ölkəmizdə fəaliyyətinin sona çatması ilə əlaqədar qəbul etmişdir |
| 26.11.2009 | Nazir Elmar Məmmədyarov Polşa Respublikasının Müdafiə naziri Boqdan Klixi qəbul etmişdir |

# XƏBƏRLƏR – NEWS – НОВОСТИ

**EU-AZERBAIJAN COOPERATION COUNCIL TENTH MEETING**
**26 October 2009, Luxembourg**

The Cooperation Council between the European Union (EU) and the Republic of Azerbaijan held its tenth meeting on 26 October 2009. The meeting was chaired by Mr Elmar Mammadyarov, Minister of Foreign Affairs of Azerbaijan. The EU delegation was led by Mr Carl Bildt, Minister of Foreign Affairs of Sweden. Ms Benita Ferrero-Waldner, Commissioner for External Relations and European Neighbourhood Policy represented the Commission and Mr Diego López Garrido, State Secretary for European Affairs represented the incoming Spanish Presidency. The EU Special Representative for the South Caucasus, Ambassador Peter Semneby also took part in the meeting.

It was highlighted at the meeting that the President Aliyev's visit to Brussels (28-29 April 2009), as well as the recent EU Foreign Ministers' Troika visit to Baku (19-20 July 2009) are examples of the continuing high level political dialogue between the EU and Azerbaijan.

During the Cooperation Council, the parties discussed the implementation of the EU-Azerbaijan European Neighbourhood Policy Action Plan and issues connected with enhancing of EU-Azerbaijan relations, including prospects for the negotiation of a new EU-Azerbaijan Association Agreement within the framework of the Eastern Partnership.

The Cooperation Council agreed on the need to accelerate the efforts to implement the jointly agreed ENP Action Plan including in the context of meeting political and trade related conditionalities for the new agreement in the areas of political dialogue and reform, as well as WTO accession. The Cooperation Council provided a timely opportunity to take stock of broader developments in the South Caucasus, as well as the advancement of political and economic reforms in Azerbaijan. The Cooperation Council also took note of the positive results of the first meetings of the multilateral thematic platforms of the Eastern Partnership, stressing the importance of a continuing positive attitude of all partners to this form of cooperation.

The Cooperation Council discussed EU-Azerbaijan cooperation in the energy sector, in particular the further implementation of the EU-Azerbaijan Memorandum of Understanding on energy jointly signed in November 2006. The Cooperation Council also discussed the progress already made and further efforts underway to establish the Southern Corridor.

The Cooperation Council explored the state of play concerning the Nagorno-Karabakh conflict. The EU welcomed the intensified dialogue between Azerbaijan and Armenia within the OSCE Minsk Group, which has enabled to narrow the differences and indicated its willingness to facilitate the process of resolving the conflict.

**INTERNATIONAL CONFERENCE**
**"INTER-CIVILIZATIONAL DIALOGUE: INSIGHT FROM AZERBAIJAN"**
**11-12 November 2009, Baku**

The international conference called "Inter-civilizational dialogue: Insight from Azerbaijan" was held in Baku on 11-12 November 2009. The conference was dedicated to the 40th anniversary of the establishment of the Organization of the Islamic Conference (OIC), of which Azerbaijan is a member state.

Azerbaijan is a miraculously diverse country, whose identity has been a result of a sophisticated blend of different cultures and civilizations. This diversity is a logical product of the complex influences of many societies and traditions, such as the Arab caliphate, the Iranian empire, the Ottoman rule, and the Tsarist/Soviet period that have borne on Azerbaijan at different times in history. At the same time, Azerbaijan's strategic geopolitical position in Eurasia, the one at the core of the historic Silk Road, made the country into a natural conduit through which goods, information and values of different civilizations comfortably travelled, got exchanged and

expanded into a wider region. Finally, due to the 19th century oil boom in Baku, the country became the first in the region where capitalist-industrial economic relations put down roots.
The multi-dimensional influences of history, geography and resource wealth have left indelible marks on Azerbaijan's national and political identity. On the one hand, with the spread of Islam to Azerbaijan in the middle of the 7th century, the country became one of the centres of Islamic civilization, to which it contributed many genius minds, scholars and poets alike. On the other hand, Azerbaijan has been at the hub of the spread of democratic values in the broader region of which it is a part. Following the collapse of the Russian empire, the Azerbaijan Democratic Republic – the first democratic and secular state in the Orient – was established in 1918. Being a secular state, involved in many pan-European institutions, and at the same time an integral part of the Islamic world, Azerbaijan is a country that deeply values its historic and religious identity, preserves its multiethnic and multiconfessional environment and thus is a channel for a dialogue between Eastern and Western civilizations.
The choice of Azerbaijan as a place of holding of the international conference was not casual. The diversity of cultures and civilizations makes Azerbaijan a unique place to discuss Islam and religion in general and inter-religious dialogue in particular through a series of panel discussions in the Conference. The event brought together the representatives of about 60 countries, including high-level officials, public figures, diplomats, representatives of international and non-governmental organizations, academia and media.

## 1st EASTERN PARTNERSHIP FOREIGN MINISTERS MEETING
## 8 December 2009, Brussels

The first Meeting of Foreign Ministers in the framework of the Eastern Partnership on 8 December 2009 in Brussels will gather foreign ministers of 27 Member States, Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova and Ukraine, as well as EU institutions. The European Commission will be represented by Commissioner for Trade and European Neighbourhood Policy, Benita Ferrero-Waldner.
While taking note of the progress made on both the bilateral and the multilateral tracks of the Eastern Partnership (EaP) ministers are expected to endorse the Work Programmes for 2010 elaborated by the multilateral platforms. Bilateral work on further deepening of relations is advancing well with 2010 likely to see negotiations with five EaP partner countries on association agreements.
The Eastern Partnership with its bilateral and multilateral components answers the aspirations of all Eastern Partnership countries to come closer to the European Union, both politically and economically.
A Comprehensive Institution Building programme will be launched early 2010 with an expert mission to identify the individual administrative needs of partner countries to implement the necessary reforms and thus to be prepared for deeper and further reaching relations with the EU. On this basis, tailor made programmes will be worked out to enhance and support partner countries capabilities to achieve tangible results in their reform processes within a shorter timeframe.
The delegation of Azerbaijan at the meeting was headed by the Minister of Foreign Affairs of Azerbaijan, Mr. Elmar Mammadyarov.

## WINTER SESSION OF NATO INTERNATIONAL SCHOOL OF AZERBAIJAN
## 7-13 December 2009, Baku

The 12th session of NATO International School of Azerbaijan was devoted to the issues of cyber security and cyber defense. 35 students from 13 different countries came together for one week session in Baku, which was organized with a strong motivation to show the participants the way to enter into the cyber world. Active participation was always an important component of strong discussions and it was the leading aspect during the discussions.
Modern developed societies are ever more reliant on a wide range of national and international

information infrastructures as they offer extremely quick right to use the information and communication by emails and are just one click away from our fingertips. It is not a secret that communication and information systems of critical substance for the nations depend on the protection and integrity of electronic information systems. These systems are increasingly more prone to cyber attacks and need to be effectively protected. Increasing number of countries are developing policies and defensive measures to address the apparent helplessness of these critical information infrastructures. The universal character of telecommunications and online systems also call for greater levels of international, scientific and legal cooperation.

NATO agreed earlier this year to a new policy on cyber defense and at present developing the technical and practical instruments to realize it. The Alliance is currently considering in which way it can share its expertise with Partners.

This new policy creates the basic principles and provides route to NATO's both civil and military parties in order to guarantee a universal and synchronized approach to cyber defense and any response to cyber attacks. It also includes recommendations for individual NATO countries on the protection of their national systems.

Herein, considering the importance of the subject matter and past experience of organizing debates on recent strategic concept matters, such as energy and maritime security, new warfare and its emerging instruments, NATO International School of Azerbaijan has decided to devote its 12th session to cyber defense and once again became an excellent venue to translate the above discussions into reality and served as a meeting point for participants from different parts of the world.

The session was divided into the panels under the supervision of distinguished speakers from various leading organizations in the field of cyber security. Speakers from Scientific and Technological Research Council of Turkey, Center of Excellence Defence against Terrorism, Institute of Information Technologies of Azerbaijan National Academy of Sciences, Microsoft Gold Certified Partner for Learning Solutions, Ministry of Communications and Information Technologies of the Republic of Azerbaijan and law experts were the main speakers, who were responsible to engage and lead the discussion, which will build the knowledge and future interest in the field of cyber security.

The subjects were selected carefully in order to facilitate the discussions according to the interest of participants. Introduction to the cyber world continued with general information cyber threats on two important levels- organizational and individual. It is no doubt wide known fact that the global world is without any borders and therefore to understand the national security in borderless world was the important footstep towards the global security. Cyber terrorism is raiding the world that is thoroughly different to the threats that existed just few decades before, therefore effective cyber policy formulation and generation of information security was the main motivation behind the session. Besides, the organization team led the simulation role model program that enabled the students to practice their knowledge on field. Fictitious problem was successfully solved by students who were equipped with the information on potential casualties that cyber attacks may bring to the infrastructure as well as running the state.

Attendees were awarded with NATO International School of Azerbaijan certificates for their active participation and contribution to the creation of public awareness on the topic of cyber security. Networking is an important element of future cooperation and NISA believes that the essentials of successful assistance were set in this session.



# 18 OKTYABR –
# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİK GÜNÜ

XX yüzilliyin sonlarında Sovetlər Birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi.

Rusiyada demokratik qüvvələrin fəaliyyəti nəticəsində respublikalarda da mərkəzdən qaçma, öz suverenliyinə qovuşmaq istəkləri qarşısıalınmaz həddə çatdı. Belə şəraitdə Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul edildi.

Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi.

Azərbaycan Respublikasında dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?"

Azərbaycan xalqı yekdilliklə Respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət himni (musiqisi Üzeyir Hacıbəyovun , sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkiz guşəli ulduz təsvirli dövlət gerbi təsdiq edildi.

1991-ci il oktyabrın 18-dən Azərbaycan istiqlal, suveren bir ölkədir və xalq bunu bir bayram kimi qeyd edir.

Müasir Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçilik siyasətimizin uğuru özünü doğrultmaqda davam edir. Son illər ölkəmizdə ulu öndər Heydər Əliyev tərəfindən başlanmış və bu siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən, cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən siyasi, sosial-iqtisadi, hüquqi, humanitar-mədəni islahatlar prosesi və artıq əldə olunmuş əhəmiyyətli göstəricilər Azərbaycan Respublikasının parlaq gələcəyinə olan inamı bir daha artırır. Bu islahatlar milli səviyyədə bir çox taleyüklü problemlərin həllinə ciddi imkanlar açmaqla yanaşı, həm də ölkəmizin inkişaf etmiş dünya birliyində layiqli yerini tutması prosesini sürətləndirir, ölkənin beynəlxalq nüfuzunu artırır.




# 12 NOYABR -
# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA GÜNÜ

Azərbaycanda hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biri siyasi-hüquqi sistemin kökündən demokratikləşmə istiqamətində əsaslı surətdə dəyişdirilməsindən ibarət olmuş, həm də bu proses mahiyyət etibarı ilə dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Şübhəsiz ki, bunların əsasında dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası durur. Məhz

TARİXİMİZİN ƏLAMƏTDAR GÜNLƏRİ – MOMENTOUS DATES OF OUR HISTORY -
ЗНАМЕНАТЕЛЬНЫЕ ДАТЫ НАШЕЙ ИСТОРИИ

Konstitusiya ölkədəki köklü dəyişikliklərə müsbət təsir göstərmiş, hüquqi dövlət quruculuğu prosesinin əsas istiqamətlərini müəyyən etmişdir.

Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə bərpa etsə də, ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, vətəndaş itaətsizliyi, xaos, hakimiyyət uğrunda zorakılığa söykənən mübarizə və anarxiya yeni Konstitusiyanın qəbul edilməsinə ciddi əngəllər yaradırdı. Həmin vaxt ilk növbədə cəmiyyətdə sabitliyi bərpa edə biləcək yeni Konstitusiyanın əsasını təşkil edən ideya və dəyərlər üzərində razılıq əldə edilməsini təmin edən siyasi iradə və müdrikliyə çox böyük ehtiyac var idi. Həqiqət ondan ibarətdir ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə xalqın təkidli tələbləri ilə qayıdışınadək Azərbaycan vətəndaş müharibəsi astanasına sürüklənmiş, milli dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzbəüz qalmışdı. Məhz belə bir məqamda Heydər Əliyev öz böyük xarizması və peşəkarlığı hesabına xalqı müstəqil Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdirərək özünün tarixi missiyasını yerinə yetirdi. Tədricən ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunçuluq və hüquq qaydası bərqərar edildi. Bütün bunlar isə Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsi üçün lazımi ictimai-siyasi şəraitin yaradılması ilə nəticələndi.

Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının yaradılması ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev Konstitusiya layihəsini hazırlayan xüsusi komissiyaya bilavasitə sədrlik etmiş, dəfələrlə layihənin açıq müzakirəsini təşkil etməklə onun müasir dəyərləri özündə ehtiva edən ən yetkin formada qəbul olunmasını təmin etmək üçün gərgin əmək sərf etmişdir.

Nəhayət, Konstitusiyanın layihəsi ümumxalq müzakirəsi üçün 1995-ci il oktyabrın 15-də dərc edilmiş və 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda seçicilərin 94,8 faizi Konstitusiyanın qəbul edlməsinin lehinə səs vermişlər. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.

Konstitusiyanın qəbul edilməsi xalqımızın tarixi ənənələrinə uyğun olan və eyni zamanda ölkəmizdə müasir dünyanın hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşdırılması, siyasi sistemdə və hüquq sistemində möhkəm özülün yaradılması işində mühüm addım olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası ənənəvi Konstitusiya anlayışının ehtiva etdiyi bütün təməl prinsipləri özündə əks etdirir. Əsas Qanunda Azərbaycan Respublikası hüquqi dövlət kimi müəyyən edilir. İnsan və vətəndaşın hüquq və azadlıqları, onların tanınması, müdafiə və təmin edilməsi qanunvericiliyin, onun tətbiq edilmə təcrübəsinin hüquqi xarakterinin əsas və təyinedici meyarı kimi təsdiq olunur. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş insan və vətəndaşın hüquq və azadlıqlarının prioritet prinsipi dövlət hakimiyyətinin bütün sahələrinə ünvanlanaraq onları bu hüquqlarla əlaqələndirir və onlar üçün müəyyən vəzifələr yaradır.

# 17 NOYABR - AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ DİRÇƏLİŞ GÜNÜ

Azərbaycanın Milli Dirçəliş Günü 17 noyabr, 1992-ci ildə elan olunmuşdur. Bu bayram 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda cərəyan edən milli azadlıq hərəkatı və bu hərəkatla bağlı hadisələrlə əlaqədardır. O zaman, 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan Lenin meydanında (hazırkı Azadlıq meydanı) azadlıq mücadiləsi uğurunda və xüsusilə də Qarabağın yadellilər tərəfindən mənimsənməsi cəhdlərinə qarşı izdihamlı və davamlı mitinqi başlanmışdı. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və Respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır.

1988-ci il noyabrın 17-də Ermənistanın torpaq iddiaları, SSRİ rəhbərliyinin Dağlıq Qarabağ



separatçılarına dolayı dəstək verməsi, Azərbaycan hakimiyyətinin ərazi bütövlüyünün müdafiəsində qətiyyətsizliyi əleyhinə Bakıda tələbə hərəkatı fəallarının başlatdığı etiraz aksiyaları ümummilli mitinqlərlə nəticələndi. Milyonlarla insan Azadlıq meydanına yığışaraq, millətimiz və dövlətimizin əleyhinə aparılan siyasətə qarşı çıxdı. Dekabrın əvvəllərində mitinqlər SSRİ-nin daxili qoşunları tərəfindən dağıdılsa da, Azərbaycan xalqının milli azadlıq hərəkatının qarşısı alına bilmədi.
1989-cu ilin iyununda Azərbaycan Xalq Cəbhəsi təsis edildi. Elə həmin ilin sentyabrında Ali Sovetin Azərbaycanın suverenliyi haqqında Konstitusiya Aktını qəbul etməsi Moskvanı daha da qıcıqlandırdı və 1990-cı ilin 19-20 yanvarında Bakıya qoşun yeridildi. Mitinq iştirakçılarına qarşı ağır texnika və odlu silahdan istifadə edildi. Yüzlərlə aksiya ştirakçıları və dinc sakin vəhşicəsinə qətlə yetirildi. Amma bu hadisə xalqımızın milli qrürurunu sındıra bilmədi. Əksinə, azadlıq hərəkatını daha da sürətləndirdi. 1990-cı il seçkilərində AXC rəhbərlərinin əksəriyyəti Ali Sovetin deputatı mandatını qazandılar və Demokratik Blok adlı fraksiya yaratdılar. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi elan olundu.



# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü- Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.
Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir.
31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib, Yeni il isə ikinci plana keçib. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.
Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu

TARİXİMİZİN ƏLAMƏTDAR GÜNLƏRİ – MOMENTOUS DATES OF OUR HISTORY - ЗНАМЕНАТЕЛЬНЫЕ ДАТЫ НАШЕЙ ИСТОРИИ

tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

SSRİ-nin son günləri, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı – bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türk dilli xalqların Konfransı keçirilirdi. Konfrans da dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verdi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram edilir.

# MƏQALƏLƏR - ARTICLES – СТАТЬИ

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZKARLIQ SİYASƏTİ VƏ ATƏT

Elçin ƏHMƏDOV*

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Helsinki Yekun Aktını 33 Avropa dövləti, ABŞ və Kanada imzalamışlar. Müşavirənin ilkin mərhələsi 1973-cü il iyulun 3-də Helsinkidə xarici işlər nazirlərinin görüşü ilə başlanmışdır. 1973-cü ilin sentyabrından 1975-ci ilin iyun ayınadək Cenevrədə siyasi sənədlər hazırlanmış, 1975-ci il iyulun 30-dan avqustun 1-dək isə Helsinkidə Yekun Akt imzalanmışdır[1].

1994-cü ildə ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında bu təşkilatın statusu genişləndirildi və o, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırıldı. 1975-ci ildən indiyədək təşkilatın üzvlərinin sayı keçmiş SSRİ və Yuqoslaviya respublikalarının hesabına artaraq 56-ya çatmışdır.

Yarandığı vaxtdan ATƏT özünün yüksək səviyyədə müntəzəm keçirilən görüşlərində və Zirvə toplantılarında (Belqrad 1977, Madrid 1980, Vyana 1986, Paris 1990, Helsinki 1992, Budapeşt 1994, Lissabon 1996, İstanbul 1999) Avropada sülhün qorunub saxlanmasına, regional və beynəlxalq münasibətlərin tənzimlənməsinə dair əhəmiyyətli qərarlar qəbul etmişdir. ATƏT-in mühüm nailiyyətlərindən biri də 1990-cı ildə Avropada adi silahlar haqqında müqavilənin imzalanmasıdır. Elə həmin il noyabrın 19-21-də ATƏT-in Parisdə keçirilən Zirvə toplantısında imzalanan "Paris Xartiyası" ATƏT tarixində "Helsinki aktı"ndan sonra mühüm bir mərhələ oldu. "Paris Xartiyası" ATƏT-in fəaliyyətinə yeni məzmun gətirdi və Avropada "soyuq müharibə" dövrü başa çatdı[2].

1990-cı il Paris Xartiyasından sonra ATƏT-in ilk daimi fəaliyyət institutları yaradıldı. Bunlar Münaqişələrin Həlli Mərkəzi, Azad Seçki Bürosu (hazırda Demokratik İnstitutlar və İnsan Haqları İdarəsi) və Katiblikdən ibarətdir. Bundan başqa ATƏT-in daha 3 siyasi orqanı təsis edildi: ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərindən ibarət Nazirlər Şurası; Nazirlər Şurasına kömək etmək üçün Yüksək Vəzifəli Şəxslər Komitəsi (1994-cü ilin dekabrından Ali Rəhbər Şura) və ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının müntəzəm keçirilən Zirvə toplantısı[3].

1992-ci ilin dekabrında Milli Azlıqların işi üzrə Ali Komissar və ATƏT-in sülhü müdafiə missiya və əməliyyatlarına nəzarətin həyata keçirilməsi üçün Baş Katib vəzifələri təsis edildi. 1993-cü ilin dekabrından Vyanada ATƏT-in Daimi Komitəsi (1994-cü ilin dekabrından Daimi Şura) fəaliyyət göstərir və burada bütün üzv olan dövlətlərin təmsilçiləri vardır. Daimi Komitə ATƏT üzvü olan dövlətlərdə siyasi məsələlərə dair, o cümlədən, böhranlı vəziyyət və silahlı münaqişələr olduqda məsləhətləşmələr aparır və müvafiq qərarlar qəbul edir[4].

Bundan başqa, 1992-ci ilin iyulundan ATƏT-in Parlament Assambleyası fəaliyyət göstərir ki, o öz iclaslarını ildə bir dəfə keçirir. ATƏT-in Fəaliyyətdə olan Sədri (Nazirlər Şurasının axırıncı iclası keçirilən dövlətin xarici işlər naziri) bir il müddətinə seçilir və onun operativ fəaliyyətinə ümumi rəhbərlik edir.

1992-ci illərin əvvəllərindən başlayaraq Ermənistan-Azərbaycan münaqişəsi daha

---

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının dosenti, siyasi elmlər namizədi

[1]OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.5

[2]OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.8

[3]Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, p.1168

[4] OSCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, p.8

çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-in üzvü oldu və həmin il iyulun 8-10-da adı çəkilən təşkilatın Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı[1].

Müstəqilliyini əldə edən Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan-Azərbaycan münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox müzakirə obyektində oldu. Bu məqsədlə fevral ayının ortalarında ATƏM-in xüsusi missiyası Azərbaycanda oldu. Fevralın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərti ilə, münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı[2].

ATƏM-in YVŞK-nın martın 13-14-də Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ münaqişəsinin davam etməsi və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə olundu. Bu görüşdən sonra ATƏM-in YVŞK-nın sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyəti martın 19-23-də ikinci dəfə münaqişə bölgəsinə səfər etdi[3]. Dağlıq Qarabağ, Bakı və Yerevanda olan nümayəndəliyin məqsədi Qarabağda atəşin dərhal dayandırılması, ATƏM müşahidəçilərinin münaqişə bölgəsində yerləşdirilməsi imkanlarını öyrənmək idi.

1992-ci il martın 23-24-də Helsinkidə ATƏM-in YVŞK-nın 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal dayandırmaq və münaqişə edən bütün tərəfləri ATƏM çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar[4].

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. ATƏM-in Nazirlər Şurası YVŞK-nın zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul etdi. Sənəddə göstərilirdi ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin[5].

1992-ci il mayın 1-də ATƏM-in YVŞK-nın Helsinkidə keçirilən 10-cu iclasında Dağlıq Qarabağa dair konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında YVŞK-nın qərarı qəbul edildi. Minsk Konfransının reallaşması üçün yaradılan eyni adlı qrup münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə həll ediləndən sonra isə məsələnin həllində neytral, regionda maraqlı dövlət olmadığını nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətlər toplanmalı və Yekun sənədi qəbul etməli idilər. ATƏM-in Xarici İşlər Nazirləri Şurası Minskdə keçiriləcək konfransa hazırlıq məqsədilə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar görüş keçirmək və məsələni həll etmək barədə Mario Rafaelliyə mandat verdi.

1992-ci il mayın 7-də ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M.Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Səfər zamanı o, bildirdi ki, regionda sülhün tezliklə bərqərar olması üçün atəş uzun müddətə kəsilməli, iyunun ortalarında keçiriləcək konfransın çağırılması şərtləri və subyektləri müəyyənləşdirilməlidir. Azərbaycan tərəfi bildirdi ki, Dağlıq Qarabağ nümayəndələri ancaq Azərbaycan nümayəndə heyətinin tərkibində konfransda iştirak edə bilərlər[6].

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ işğal edildi. Bundan sonra erməni hərbi qüvvələrinin qarşısında duran vəzifə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda iki respublikanın arasında

---

[1] Dövlət başçılarının Helsinki görüşü. Helsinki, 8-10 iyul 1992: Sənədlər və materiallar, Bakı, «Şərq-Qərb», 1992, s.12
[2] CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, CSO. Journal N 2, p.1-4
[3] Report of the Second CSCE Mission on Nagorno Karabakh. CSCE. Helsinki, 24 March, 1992.
[4] CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, p. 35
[5] CSCE. First Additional meeting of the Council. Helsinki, 24 March, 1992, CSO. Journal, N 3, p.1-3
[6] CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, CSO. Journal N 2, p.1-4

yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, "öz müqəddəratını tə'yin etmək" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ sərhədlərindən çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi[1].

Nəticədə, 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km²) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpağında qaçqın vəziyyətinə düşdü, 900-ə yaxın yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox (17 min km²) hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur[2].

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı nəinki münaqişənin hərbi tərəfini, eyni zamanda onun mahiyyətini də dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi.

1992-ci il iyunun 1-dən 5-dək Romada Minsk Qrupunun danışıqları seriyasından ilk mərhələ başlandı. Romada 11 ölkənin – ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Çexoslovakiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən görüş iyunun 23-də Minskdə açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq məqsədi daşıyırdı[3].

Roma görüşündə Minsk Konfransının keçirilməsinə əngəl törədən erməni təcavüzü barədə məsələ müzakirə olundu. Konfransın qəbul edilməmiş sənədlərində "Laçından hərbi hissələrin çıxarılması", "Qaçqınların Laçına qaytarılması","Şuşadan qoşunların çıxarılması", "Bu məsələlərin icrasına nəzarət etmək üçün beynəlxalq müşahidəçilərin yerləşdirilməsi" və s. kimi bəndlər var idi. Təklif edilmişdi ki, ATƏM-in Minsk Konfransı ərəfəsində, bu konfransın çağırılması haqqında qərar qəbul edilərkən mövcud olan, yəni Laçının tutulmasından əvvəlki vəziyyətə qayıtmaq lazımdır. Ancaq Ermənistan nümayəndələrinin konsensusa gələ bilmədiklərindən həmin sənəd qəbul edilmədi. 1992-ci il iyunun 15-dən 20-dək Romada Minsk Qrupunun danışıqları seriyasından keçirilən ikinci mərhələdə erməni tərəfi konfransın Laçın və Şuşanın işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Goranboy və Ağdərənin adlarını əlavə etməyi tələb etdilər[4].

ATƏM çərçivəsində M.Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə Romada 1993-cü il fevralın 26-dan martın 1-dək Minsk Qrupu danışıqlarının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə həsr edilmiş növbəti mərhələsində tərəflər münaqişə zonasına müşahidəçilər qrupunun göndərilməsi haqqında razılığa gəldilər[5]. Çox gərgin keçən danışıqlardan sonra tərəflər arasında saziş imzalandı. Qərara alındı ki, atəşin dayandırılması müddətləri, ATƏM-in atəşin dayandırılması üzrə müşahidəçilər missiyasının işə başlaması və Minsk Konfransının rəsmən açılması ilə bağlı maddələr də daxil olmaqla sülh danışıqları prosesinin konkret sənədləri barədə saziş imzalamaq üçün Minsk Qrupunun 1993-cü ilin aprel ayında daha bir görüşü keçirilsin. İmzalanan saziş aprelin 26-da keçiriləcək ATƏM-in YVŞK-nın iclasında bəyənilməli idi[6].

Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı hücumu nəticəsində 1993-cü il martın 27-dən aprelin 3-dək Azərbaycanın Kəlbəcər rayonunun işğalı münaqişəni keyfiyyətcə başqa səviyyəyə keçirdi. Ermənistan Respublikasının bu təcavüzü Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən ərazilərinin intensiv surətdə işğal edilməsinin yeni mərhələyə – işğalçılıq mərhələsinə keçməsinə sübut idi.

---

[1] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.5
[2] Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, s. 157
[3] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s.14
[4] Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, s.124
[5] "Azərbaycan", 3 mart 1993-cü il
[6] Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, s. 124

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvüləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və məzmununun qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirildi. Şuranın daimi üzvləri münaqişəyə Azərbaycanla Dağlıq Qarabağ arasında olan münaqişə kimi baxırdılar. BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Vyanada ATƏM-in Minsk Qrupu tərəfindən BMT TŞ-nın 822, 853 və 874 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Tə'xirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" yenidən tərəflərin müzakirəsinə verildi. "Vyana cədvəli" prinsipcə "Paris cədvəli"ndən o qədər də fərqlənmirdi. Bu "Cədvəl"də Dağlıq Qarabağ ermənilərinin qeyri-konstitusiya qurumu statusu alması, yə'ni danışıqlar prosesində Dağlıq Qarabağ ermənilərinin "münaqişə iştirakçısı olan tərəf" səviyyəsinə qaldırılması Azərbaycanın mənafeyinə zidd idi[1].

ATƏM-in Minsk Qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, onun BMT Təhlükəsizlik Şurasının mə'lum qətnamələrini yerinə yeritmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir tə'sir gücünə malik deyildi. ATƏM-in başlıca çatışmazlıqlarından biri də, məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbul etmə mexanizminin olmaması idi. Minsk Qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və ya tövsiyə xarakteri daşıyırdı. ATƏM-də tətbiq olunan qarşılıqlı güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məs'uliyyət daşımamaq imkanı verirdi. Buna görə də ATƏM tərəflərin razılığı ilə münaqişə bölgəsinə müşahidəçilər qrupu göndərə bilərdi. 1992-1993-cü illər ərzində Minsk Qrupunun qəbul etdiyi yeganə konstruktiv sənəd də məhz münaqişə bölgələrində beynəlxalq hərbi müşahidəçilərin yerləşdirilməsini nəzərdə tutan 1993-cü il 1 mart tarixli mandat idi. Bu illərdə hərbi əməliyyatların dayandırılması və münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏM-in və onun yaratdığı Minsk Qrupunun göstərdiyi sə'ylər heç bir nəticə vermədi[2].

Torpaqlarına təcavüz olandan sonra da, Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı duran tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxartdı.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və bunu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər biri xeyli dərəcədə Rusiya-Qərb qarşıdurması kontekstində qiymətləndirilə bilər. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiya siyasi dairələrində narahatlıq doğurmağa başlamışdı. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Rusiya ATƏM-in Minsk qrupunun üzvü olsa

[1] Adjusted Timetable of Urgent Steps to Implement U.N. Security Council Resolutions 822, 853 and 874. November 12, 1993.
[2] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 25.

da, 1993-cü ildə özünün müstəsna rolunu israr etməklə, istər BMT, istərsə də ATƏM çərçivəsində regionda "sülhün və sabitliyin təminatçısı" statusunu almağa səy göstərirdi. Rusiya ATƏM çərçivəsində vasitəçiliyi bitərəfləşdirməklə özünün münaqişənin nizama salınması planına aşkar üstünlük verirdi. Münaqişənin həllinə dair planlarda ATƏM ilə Rusiya arasında yaranmış fikir ayrılığı ondan ibarət idi ki, ATƏM münaqişənin nizama salınmasında çoxtərəfli vasitəçiliyin olmasını istəyir, sülh prosesinin beynəlxalq müşahidəçilərin nəzarəti altında aparılmasına və çoxmillətli sülhməramlı qüvvələrin formalaşmasına çalışırdı. Rusiya isə əksinə, münaqişənin nizamlanmasını öz nəzarətində saxlamaq və regionda geosiyasi maraqlarını təmin etmək üçün münaqişə bölgələrində yalnız rus qoşunlarının yerləşdirilməsini istəyirdi[1].

Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistanda öz qoşunlarını yerləşdirmiş, onu gizli və aşkar yolla silahlandıraraq Azərbaycan ərazilərinin işğal olunmasına imkan yaratmışdır. 1997-ci ilin əvvələrində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxdı. Məlum oldu ki, bu silahlar 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir zamanda göndərilməyə başlanmış və bu da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaratmış, sonralar atəşkəs elan ediləndən sonra da bu proses davam etmişdir.

1993-cü ilin oktyabrında ABŞ Rusiyanın bu iddialarına qarşı birmənalı şəkildə çıxış etməyə başladı. Əvvəlcə, Rusiya hərbi qüvvələrinə BMT sülhməramlı qüvvələri statusu verilməsinə qəti e'tiraz edildi. Sonra isə Rusiya bu məsələni 1993-cü ilin dekabrında Romada ATƏM-in Xarici İşlər Nazirləri Şurasının görüşündə həll etməyə çalışmış, lakin orada da istədiyi mandatı ala bilməmişdi. Qərbin kəskin mövqeyi ABŞ, Böyük Britaniya, Almaniya və Türkiyə dövlət nümayəndələrinin rəsmi bəyanatlarında da öz əksini tapdı. ABŞ-ın MDB dövlətləri üzrə koordinatoru Ceyms Kollinz Rusiyanın keçmiş SSRİ ölkələrinə təzyiqinin gücləndiyini və ABŞ-ın bunun əleyhinə olduğunu bildirdi. O, bəyan etdi ki, ABŞ Qarabağ münaqişəsi regionuna yalnız bir dövlətin qoşunlarının gətirilməsinə imkan verməyəcək. Dövlət Departamentinin bəyanatında da qeyd edilirdi ki, ABŞ münaqişənin yalnız ATƏM çərçivəsində həllinə üstünlük verir. Dağlıq Qarabağa dair danışıqlarda ABŞ-ın xüsusi nümayəndəsi olmuş Con Mareska isə Rusiyanın regionda nüfuzunu bərpa etmək istəyinə işarə edərək bildirdi ki, əgər Qərb, xüsusilə ABŞ biganə qalarsa, onda Rusiya məsələləri öz bildiyi kimi həll edəcək[2].

Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli liderim Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Prezident Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər dövlət başçısının apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Prezident Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində 1994-cü ilin mayın 12-də atəşkəs haqqında razılıq əldə edildikdən sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı[3].

1994-cü ilin dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında Prezident Heydər Əliyevin çevik diplomatiyasının təsiri ilə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu[4]. Qəbul edilən sənəddə münaqişə

[1] Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 29-30.
[2] Maresca J.J. Agony of Indifference in Nagorno-Karabakh. "The Christian Science Monitor". Boston. June 27, 1994, p.19.
[3] Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s.199.
[4] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, s.725-726.

bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi[1]. Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhpərvərlik" istəyinin qarşısının alınması idi.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi[2]. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi[3].

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət - yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 6 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər[4]. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi[5]. Azərbaycan Prezidenti həmin planlarla tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı[6].

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbul edilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər[7]. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına eyni məzmunlu məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən Azərbaycanın dövlət başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı[8].

---

[1] CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, p. 4-5

[2] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, s.726

[3] OSCE. Lisbon Document 1996. Lisbon, 1996, p.6

[3] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş.- "Azərbaycan", 21 fevral 2001-ci il

[5] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş.- "Azərbaycan", 21 fevral 2001-ci il

[6] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, s. 726

[7] ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında - "Azərbaycan", 21 fevral 2001-ci il

[8] «Xalq qəzeti», 17 aprel 1999-cu il

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Həmsədrlər tərəfindən irəli sürülən və sonuncu olan "Ümumi dövlət" ideyası iflasa uğradıqdan sonra Minsk qrupu praktik olaraq dalana dayandı.

Danışıqlar prosesinə təkan vermək üçün 1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlandı və ATƏT-in Minsk qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüşün nəticəsində də münaqişənin nizama salınması istiqamətində konkret nəticə əldə edilmədi.

Münaqişə tərəflərinin mövqelərində ziddiyyətlərin qalması xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi səbəbindən ATƏT-in 1999-cu il noyabrın 18-19-da İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilən yekun bəyannamədə yalnız Dağlıq Qarabağ problemi ətrafında yaranmış mövcud vəziyyəti özündə əks etdirən və Minsk qrupu çərçivəsində münaqişə tərəflərinin danışıqları davam etdirməyə çağıran 20-ci maddə öz əksini tapdı[1]. Sənəddə ATƏT-in Minsk qrupu həmsədrlərinin cəhdlərinə müsbət qiymət verilməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentləri arasında intensivləşən danışıqlardan razılıq ifadə olunur və nizamlama formatına daha çox uyğun gələn Minsk qrupu çərçivəsində müntəzəm olaraq sülh prosesinin davam etdirilməsi üçün görüşlərin keçirilməsi dəstəklənirdi.

2001-ci ilin əvvəli iki dövlətin prezidentləri arasında keçirilən danışıqların intensivliyi ilə müşahidə olundu. Belə ki, 2001-ci ilin yanvarın 26-da Parisdə əvvəlcə Marini sarayında, martın 5-də isə Yelisey sarayında aparılan danışıqlar daha snora aprelin 4-6-da ABŞ-ın Florida ştatının Ki-Vest şəhərində Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etdirildi.

Sonradan "Paris prinsipləri" adını almış bu variantda əvvəllər irəli sürülmüş 3 təklifin ("paket", "mərhələli" və "ümumi dövlət") tərəfləri qane edən məqamlarının ümumiləşdirilməsi nəzərdə tutulurdu. Daha sonra Minsk qrupu həmsədrləri bəyan etdilər ki, onlar münaqişənin həlli ilə bağlı yeni təklif üzərində işləyirlər və onu iyul ayında Cenevrədə keçiriləcək növbəti görüşdə prezidentlərə təqdim edəcəklər. Lakin adı çəkilən bu görüş Ermənitsanın qeyri-konstruktiv mövqeyi nəticəsində baş tutmadı.

ATƏT-in Nazirlər Şurasının 2001-ci il dekabrın 3-4-də Buxarestdə keçirilən iclasında qəbul edilmiş bəyanatda sülh danışıqlarının davam etdirilməsinin vacibliyi bildirilmiş və tərəflərə münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında tez bir zamanda həll edilməsi üçün səyləri artırmaq məsləhət görülmüşdür[2].

2002-ci ilin mart ayında regiona səfəri zamanı ATƏT-in Minsk qrupu həmsədrləri danışıqların Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri səviyyəsində davam etdirilməsini təklif etdilər. Bu təklif hər iki dövlət tərəfindən qəbul edildi. Belə ki, 2002-ci il mayın 13-15-də və iyulun 29-30-da Praqa şəhəri yaxınlığında Ştirin ərazisində, daha sonra isə həmin il noyabrın 15-də Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin üç görüşü baş tutdu[3]. Mahiyyətcə "mərhələli həll" planını ehtiva edən Praqa formatının Azərbaycan tərəfindən dəstəklənməsinə baxmayaraq Ermənistan tərəfinin Dağlıq Qarabağın statusu məsələsini yenidən ilkin şərt kimi müzakirə olunmasını irəli sürməsindən sonra danışıqlar prosesi yenidən dalana dirəndi.

ATƏT-in Nazirlər Şurasının 2002-ci il dekabrın 6-7-də Portuda keçirilən iclasında qəbul edilmiş bəyanatda tərəflər arasında danışıqların intensivləşməsinə və Minsk qrupu həmsədrlərinin fəal dəstəklənməsinə baxmayaraq, Dağlıq Qarabağ probleminin hələ də nizamlanmamasına görə narahatlıq ifadə olundu. Sülh prosesinin davam etdirilməsinin vacibliyi vurğulanmaqla, tərəflər beynəlxalq hüquq normaları və prinsipləri əsasında problemin qısa bir zamanda həllinə çağrıldılar. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan prezidentlərinin, həmçinin onların şəxsi nümayəndələrinin

[1] OSCE. Istanbul Summit Declaration. Istanbul, 1999, p.8
[2] ОБСЕ. Девятая встреча Совета министров. Бухарест, 3-4 декабря 2001 года . Решения 2. Заявление Совета министров (5).
[3] Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, с.127

davamlı görüşləri dəstəkləndi. Azərbaycan nümayəndə heyəti ATƏT-in Nazirlər Şurasının bu qərarı ilə əlaqədar olaraq izahedici bəyanat verdi[1].

Ümumiyyətlə, 1992-ci ildən başlayaraq ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar və bu qurumla qarşılıqlı əməkdaşlıq ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri ilə Azərbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilmişdir. Yalnız, onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirmişdir.

2003-cü il dekabrın 1-2-də ATƏT-in Nazirlər Şurasının Maastrixdə keçirilən növbəti iclasında qəbul edilmiş bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində edilən cəhdlərin uğursuzluğundan narahatlıq ifadə olundu. Nazirlər yenidən sülh danışıqlarına təkan verməyin vacibliyini vurğulamaqla tərəfləri münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həll olunması üçün edilən səyləri ikiqat artırmağa çağırdılar. Azərbaycan nümayəndə heyəti bu çağırışa uyğun bəyanatla çıxış etdi[2].

Ümummili liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti seçildiyi ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən cənab İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir. Azərbaycan prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı münaqişəni dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirmiş, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Belə ki, 2004-cü il fevralın 4-də ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev qeyd etdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar - ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir[3]. ATƏT-in Parlament Assambleyasının fevralın ortalarında keçirilən iclası zamanı Qoran Lenmarkerin məruzəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş və işğal olunmuş ərazilərin qaytarılmasının zəruriliyi ön plana çəkilmişdir[4].

2004-cü ilin martın 16-da ATƏT-in fəaliyyətdə olan sədri, Bolqarıstanın xarici işlər naziri Solomon Passinin Azərbaycana səfəri zamanı dövlət başçısı cənab İlham Əliyevlə görüşündə Minsk qrupunun konkret təkliflərinin olmadığını və hər iki dövlətin prezidentlərinin dialoqundan çox şey gözlədiyini bəyan etdi[5]. Son zamanlar Minsk qrupu həmsədrləri də problemin məhz Azərbaycan və Ermənistan rəhbərlərinin qarşılıqlı anlaşması sayəsində həll oluna biləcəyini dəfələrlə vurğulamışlar. Onu da qeyd etmək vacibdir ki, münaqişə başlayandan həqiqətən qarşılıqlı anlaşma mövcud olsaydı, heç Minsk qrupunun fəaliyyətinə də ehtiyac duyulmazdı. Çünkü tərəflərin bir-birinin şərtlərini qəbul etməməsi, xüsusilə Ermənistanın daim qeyri-konstruktiv mövqedən çıxış etməsi danışıqların nəticəsiz, münaqişənin isə həll olunmamış qalmasına gətirib çıxarmışdır.

Məhz bu səbəbədən də dövlət başçısı cənab İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edərkən bir daha Minsk qrupunun fəaliyyətini tənqid etmiş və Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalaraq, münaqişənin yalnız beynəlxalq hüquq normaları əsasında respublikamızın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama

[1] ОБСЕ. Десятая встреча Совета министров. Порто, 6-7 декабря 2002 года . Заявление Совета министров (4); Приложение 3. Дополнение 3. Интерпретирующее заявление Азербайджана.
[2] ОБСЕ. Одинадцатая встреча Совета министров. Маастрихт, 1-2 декабря 2003 года . Заявление о понимании председателя; Заявление делегации Азербайджана.
[3] "Azərbaycan", 5 fevral 2004-cü il
[4] "Azərbaycan", 13 mart 2004-cü il
[5] «Xalq qəzeti», 17 mart 2004-cü il

salınmasının vacibliyini bildirmişdir.
2004-cü il aprelin 16-dan başlayaraq Praqada Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqlar yenidən bərpa olundu. Sonradan "Praqa prosesi" adını almış danışıqların bu mərhələsində 2005-ci ilin yayına qədər iki dövlətin xarici işlər nazirləri 11 görüş keçirərək münaqişənin nizama salınmasına dair sülh planının yeni variantının detallarını müzakirə etdilər. Bununla yanaşı, Azərbaycan və Ermənistan prezidentləri arasında 2004-cü il aprelin 28-də əvvəlcə Varşavada, sonra isə sentyabrın 15-də Astanada keçirilən danışıqların başlıca mövzusu xarici işlər nazirlərinin Praqa görüşlərində razılaşdırılan məsələlərin əsas detalları oldu.
ATƏT-in Nazirlər Şurasının 2004-cü il dekabrın 6-7-də Sofiyada keçirilən iclasında Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilən bəyanatda Azərbaycan və Erəmnistan prezidentlərinin Minsk qrupununu həmsədrlərini himayəsi altında baş tutmuş 3 görüşü dəstəklənirdi. ATƏT-in Minsk qrupu həmsədrlərinin "Praqa prosesi"nin nəticələrinə dair sentyabr ayında Astanada hər iki dövlətin prezidentlərinə təqdim edilmiş çərçivə sənədi münaqişənin nizamlanmasının əsası kimi qeyd olundu[1].
2005-ci il yanvarın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətində əlverişli şəraitin yarandığını və bu problemin "Praqa prosesi" əsasında getdiyini bildirməklə danışıqlarda yeni mərhələnin başlandığını bəyan etdi[2]. Ermənistanın münaqişənin "Praqa prosesi", yəni "mərhələli həll" variantı ilə razılaşmaq məcburiyyətində qalması heç şübhəsiz Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasətin nailiyyətlərindən biri hesab oluna bilər. 2005-ci il mayın 15-də Varşavada, avqustun 27-də isə Kazanda iki ölkənin prezidentləri arasında keçirilən növbəti görüşlərdə danışqların əsas mövzusu təklif olunan yeni sülh planının detallarının müzakirəsi oldu.
2005-ci ildə dekabrın 5-6-da ATƏT-in Nazirlər Şurasının Lyublyanada qəbul edilmiş bəyanatında 2005-ci il ərzində "Praqa prosesi" çərçivəsində Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlarda, xüsusilə ATƏT Minsk qrupu həmsədrlərinin himayəsi altında Azərbaycan və Ermənistan prezidentlərinin Varşava və Kazan görüşlərində əldə olunmuş tərəqqiyə razılıq ifadə olunur və hər iki ölkənin prezidentinə yaranmış imkanlardan münaqişənin nizama salınması üçün istifadə etmək tövsiyə olunurdu[3].
Münaqişənin nizama salınmasına dair aparılan danışıqların "Praqa prosesi" adını almış variantın ictimaiyyət üçün açıqlanan əsas elementləri ondan ibarət idi ki, burada nizamlanmanın "mərhələli həll" variantının detalları müzakirə obyektinə çevrilmişdi.
2006-ci il Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində aparılan danışıqların intensivliyi dövrü kimi xarakterizə oluna bilər. Məhz bu ildə tərəflərin nizamlanmaya bir addım yaxın olması barədə təsəvvürlər formalaşdı. Belə ki, Azərbaycan və Ermənistan prezidentləri 2006-cı il fevralın 10-11-də Paris yaxınlığında Rambuyedə, iyunun 5-də Buxarestdə, noyabrın 28-də isə Minskdə görüşdülər. Bundan əlavə, il ərzində hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində altı görüş keçirildi. Danışıqların tam təfərrüatı açıqlanmasa da, tərəflərin nizamasalma prosesində bəzi elementlərin razılaşdırılmasının müzakirə olunduğu bildirilidi.
ATƏT-in Nazirlər Şurasının 2006-cı il dekabrın 4-5-də Brüsseldə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul etdiyi bəyanatda 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmələri üçün daha da yaxınlaşması qeyd olundu. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan prezidentləri 2007-ci ildə baza prinsiplərini razılaşdırmaq üçün səyləri gücləndirməyə çağırıldılar[4].
Keçirilən görüşlərdə Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa prosesi"nin yenidən dalana dayanmasına və danışıqların nəticəsiz qalmasına gətirib çıxartdı. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması prosesini sürətləndirmək üçün yenidən baza prinsipləri 2007-ci il noyabrın

[1] ОБСЕ. Двенадцатая встреча Совета министров. София, 6-7 декабря 2004 года . Заявление Совета министров о Нагорно-Карабахском конфликте.
[2] «Xalq qəzeti», 04 yanvar 2005-ci il.
[3] ОБСЕ. Тринадцатая встреча Совета министров. Любляна, 5-6 декабря 2005 года . Заявление Совета министров о конфликте, являющемся предметом рассмотрения в Минской группе ОБСЕ.
ОБСЕ. Четырнадцатая встреча Совета министров. Брюссель, 4-5 декабря 2006 года . Заявление о Нагорному Карабаху.

sonunda Madriddə tərəflərə təqdim olundu.
ATƏT-in Nazirlər Şurasının 2007-ci il noyabrın 29-30-da Madriddə keçirilən növbəti iclasında qəbul edilən bəyanatda Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində cari danışıqların gələcək seçki ilində davam etdirilməsinə dair Azərbaycan və Ermənistan arasında razılığın əldə edilməsindən məmnunluq ifadə olundu. Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişənin nizamlanmasının baza prinsiplərinin razılaşdırılması üçün tərəflərə təqdim olunmuş variant dəstəklənirdi[1].
Bundan sonra, 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburqda, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də isə Münhendə Azərbaycan və Ermənistan prezidentlərinin 8 görüşü keçirildi. Bu görüşlər zamanı danışıqların mahiyyəti haqqında verilən məlumatlarda bildirilir ki, son beş ildə "Praqa prosesi" çərçivəsində işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri mövcuddur. Bu prinsiplərin bəziləri üzrə müəyyən razılaşma əldə edilmişdir. Lakin hazırda prezidentlər səviyyəsində müzakirə olunan bir neçə prinsip üzrə anlaşmanın müəyyən cizgiləri hiss olunur. Bu kontekstdə bütün məsələlərə dair ümumi razılıq əldə olunduqdan sonra yekun hər hansı bir sənədin qəbul ediləcəyi bildirilir.
Heç şübhəsiz ki, Ermənistan tərəfi aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi uzatmağa çalışır. Aparılan danışıqların gedişi konfidensial səciyyə daşısa da, Azərbaycan Prezidenti İlham Əliyev görüşlərin daha intensiv xarakter aldığını qeyd etməklə yanaşı, bu gün danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma ev-eşiklərinə qayıdışı məsələlərinin mövcudluğunu bildirmişdir. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivinin olmadığını söyləyən dövlət başçısı cənab İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra Dağlıq Qarabağın müstəqil olmayacağını vurğulamışdır. Eyni zamanda, Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanın mövqeyi birmənalıdır və biz bütün təzyiqlərə baxmayaraq sonadək öz mövqeyimizi müdafiə edəcəyik[2].
2009-cu ilin iyulun 10-da «Böyük səkkizlər»in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərini Baza Prinsiplərinə dair son təkliflərin əks olunduğu, yəni 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.
Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin prezidentləri Azərbaycan və Ermənistan prezidentlərini qalan fikir ayrılıqlarını aradan qaldırmağa və hərtərəfli sülh planının əsasını təşkil edəcək Baza Prinsiplərinin razılaşdırılmasını başa çatdırmağa çağırış öz əksini tapdı. Eyni zamanda, bəyanatda bu prinsiplərin Helsinki Yekun Aktına, yəni gücün tətbiq edilməməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququna əsaslandığı qeyd olundu[3].
Münaqişənin nizama salınması prosesində Azərbaycan və Ermənistan tərəflərinin mövqelərində müəyyən fərqlər qalmaqdadır. Azərbaycan dövlətinin mövqeyi əvvəlki kimi birmənalıdır. Yəni, ermənilər Dağlıq Qarabağ ətrafında işğal etdikləri əraziləri mərhələli şəkildə azad etməli, məcburi köçkünlər öz doğma yurdlarına qayıtmalıdırlar. Bundan sonra isə, keçid dövründə Laçın və Kəlbəcər rayonlarının azad edilməsi ilə eyni zamanda Dağlıq Qarabağ və Ermənistan arasında dəhlizin yaradılması mümkündür.
Növbəti mərhələdə Dağlıq Qarabağdan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalı və sülhməramlı qüvvələr yerləşdirilməlidir. Dağlıq Qarabağın 65 min azərbaycanlı əhalisi oraya qayıtdıqdan sonra isə status məsələsi müzakirə olunub hazırlana bilər. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. 2008-ci il noyabrın 2-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyannamədə də münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur.

---

[1] ОБСЕ. Пятнадцатая встреча Совета министров. Мадрид, 29-30 ноября 2007 года . Заявление Министров.
[2] "Azərbaycan", 28 may 2009-cu il
[3] "Ayna", 11 iyul 2009-cu il

Ermənistan tərəfinin mövqeyinə gəldikdə isə, ermənilər öz müqəddəratını təyinetmə prinsipini əsas gətirərək Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasına çalışırlar. Ancaq ermənilər öz müqəddəratını təyin etmə hüququndan hələ əsrin əvvəllərində ən yüksək səviyyədə istifadə edərək özlərinin müstəqil dövlətini – Ermənistan Respublikasını yaratmışlar. Dağlıq Qarabağ bölgəsinin erməniləri isə müstəqil Azərbaycan dövlətində yaşayan milli azlıqlardan biridirlər. Beynəlxalq hüquq normalarına görə milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər. Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir.

Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Bundan əlavə, Ermənistan tərəfi aparılan danışıqlarda Dağlıq Qarabağın üçüncü tərəf kimi iştirakının təmin olunmasını istəyir. Ancaq bu tələb də əsassızdır və heç bir məntiqə uyğun deyil. Çünki Dağlıq Qarabağ ermənilərinin müstəqil tərəf kimi danışıqlarda iştirakı məsələsi nəinki ATƏT-in Minsk qrupunun mandatına ziddir, eyni zamanda 2008-ci ilin sonunda Moskvada imzalanmış məlum bəyannamədə də açıq şəkildə bildirilir ki, münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesində yalnız Azərbaycan və Ermənistan tərəfləri iştirak edə bilər.

Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu dəfələrlə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu il iyulun 13-də Londonda məşhur Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşü zamanı Ermənistan rəhbərinin Moskva bəyannaməsini tərəf kimi imzaladığını vurğulamaqla yanaşı, danışıqların Ermənistanla Azərbaycan arasında aparıldığını və bunun beynəlxalq format olduğunu bildirərək qeyd etdi ki, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi bəyannaməni imzalamazdı. Bununla yanaşı dövlət başçısı bəyan etdi ki, «Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər»[1].

Buna görə də Ermənistan ilk növbədə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etməli, işğalçılıq siyasətinə son qoymalı, sonra isə münaqişənin nizamlanmasının variantları barədə öz mövqeyini bildirməlidir. Münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı cənab İlham Əliyev ilk növbədə sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğalı, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq etdiyini vurğulamışdır[2].

Regionda baş verən son hadisələr, xüsusilə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində atılan addımlar indiyə qədər danışıqlar prosesində qeyri-konstruktiv mövqeyi ilə nizamlanma prosesinə maneə törədən Ermənistan tərəfini yenə də vaxt uzatmaq taktikasını tətbiq etməyə imkan yaradır. Bununla əlaqədar dövlət başçısı İlham Əliyev açıq şəkildə bildirdi ki, Türkiyə-Ermənistan münasibətləri Dağlıq Qarabağ məsələsinin həllindən əvvəl tənzimlənərsə, o zaman Ermənistanın mövqeyi danışıqlar prosesində daha da sərtləşə bilər. Bu problemlərin, yəni Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və Türkiyə-Ermənistan sərhədlərinin açılması proseslərinin paralel olaraq həll edilməsinin vacibliyini bildirən Prezident İlham Əliyev ölkəmizin bölgədə və dünyada artan rolunun Ermənistanın təcrid vəziyyətdən çıxmasına heç vaxt imkan verməyəciyini vurğulayaraq, qeyd etdi ki, "Bu vəziyyətin yaranmasının əsas səbəbkarı Ermənistan rəhbərliyinin özüdür"[3].

Ermənistan-Azərbaycan münaqişəsi həll ol-

[1] "Azərbaycan", 17 iyul 2009-cu il
[2] "Xalq qəzeti", 07 aprel 2009-cu il
[3] "Azərbaycan", 10 oktyabr 2009-cu il

unmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı İlham Əliyev ölkəmizin öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan etdi ki, "Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəkdir"[1].

Bundan əlavə, dövlət başçısı İlham Əliyev son Münhen danışıqları ərəfəsindəki çıxışında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd etdi ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, ancaq onlar icra olunmur və belə olan halda o qətnamələr mənasını itirir. Dünyada beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmasını bunun nəticəsi kimi qiymətləndirdi.

Ona görə də ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini vurğuladı. Problemin sülh yolu ilə həll olunmasına ümidlərini itirməyən və bu səbəbdən münaqişənin nizama salınmasında dinc vasitələrə üstünlük verdiyini söyləyən Prezident İlham Əliyev qeyd etdi: "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq"[2].

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində beynəlxalq təşkilatlarin səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq, yeni formada addımlar atılmışdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması olmuşdur. Həmin vaxtdan bu günə qədər iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Surixdə, Münhendə və habelə iki respublikanın sərhəddi - Sədərəkdə 40-a qədər görüş keçirmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir.

Bundan başqa, münaqişənin nizamlanması istiqamətində vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sonuncu təklifindən 10 ildən çox vaxt keçməsinə baxmayaraq, Minsk qrupu indiyə qədər heç bir yeni təkliflə çıxış etməmişdir. Buna baxmayaraq Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın Prezidenti İlham Əliyev keçən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 50-dən çox görüş keçirmiş və bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda ölkəmizin ilk növbədə sülh variantına üstünlük verdiyinə sübutdur.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Bununla yanaşı, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirir. Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

---

[1] "Xalq qəzeti", 17 oktyabr 2009-cu il
[2] "Azərbaycan", 18 noyabr 2009-cu il

# GEOSİYASİ RİSKLƏR ŞƏRAİTİNDƏ XARİCİ SİYASƏTİN FORMALAŞMASI VƏ DİALOQ DİPLOMATİYASI

**Azər XUDİYEV ***

Xarici siyasət özlüyündə mürəkkəb prosesdir. Bu sahədə hər bir terminin və anlayışın dəqiq işlədilməsinə ehtiyac vardır. "Milli məqsəd" və "milli maraq" anlayışları bu baxımdan müasir siyasətdə incəliklə nəzərə alınmalıdır. Bəzən bu anlayışları eyniləşdirirlər: milli marağı milli məqsəd kimi başa düşürlər və yaxud əksinə. Əslində isə onlar arasında incə fərqlər vardır. Məsələn, milli məqsəd kimi Dağlıq Qarabağ probleminin həllini qarşıya qoymaq olar. Ancaq bu məqsədə istənilən şərtlər daxilində nail olmaq doğru olmazdı. Burada milli maraqların gözlənilməsi şərti mütləqdir. Milli məqsədə çatmağın üsulları və şərtləri milli maraqlarla tənzimlənməlidir. Bunu tarix və zaman təsdiq edir. Məsələn, Müasir dövrdə geosiyasi risklərin mövcudluğu şəraitində milli maraqların gözlənməsi daha əhəmiyyətli məna kəsb edir. Xarici siyasətdə geosiyasi risqlərin milli maraqlara uyğun idarə edilməsi imkanlarının nəzəri öyrənilməsi və praktiki tətbiqi aktuallaşır.

Risk anlayışının mənşəyi dəqiq məlum deyil. Risk haqqında ilkin təsəvvürlər Qədim Şərqdə formalaşmışdı. Qərbdə "risk" anlayışına yalnız Orta Əsrlərdən Yeni Dövrə keçid mərhələsində rast gəlinir. XYI əsrdə Covanni Botero indi də məşhur olan belə bir fikir söyləmişdi: "Chi non risica non guadagna" ("kim risk etmirsə, heç nə ala bilməz").

M.Xaydegger XX əsrin ortalarında vurğulayırdı ki, risk nəticəsi öncədən bəlli olmayan imkanın aktuallaşmasıdır. Risk haqqında ciddi elmi araşdırmalar aparan bütün müəlliflər bu fikirdədirlər ki, elmi iddialara cavab verə biləcək risk anlayışı yoxdur. Bunlarla yanaşı, "risk" anlayışından elmlə yanaşı, siyasətdə və geosiyasətdə geniş istifadə edilir. Bu anlayış altında diplomatlar konkret faktorları və onlara münasibəti nəzərdə tuturlar. Məsələ ondan ibarətdir ki, hər bir müasir cəmiyyətin öz içində yetişdirdiyi "risk sahəsi" də vardır. Bu anlayışı regiona və bütövlükdə dünyaya da aid etmək olar. ki, elmi iddialara cavab verə biləcək risk anlayışı yoxdur. Risk bütün dünya miqyasında özünü göstərsə də, hər bir cəmiyyət və dövlət özünə aid olan riskləri öyrənməli, onları nəzərə almalı və siyasətində istifadə etməlidir. Başqasının təcrübəsini öyrənməklə riskli dünyada uğur əldə etməyin bədəli dövlətçiliyi itirmək dərəcəsinə qədər böyük olur! Bu məqam xarici siyasətdə risklərin nəzərə alınmasını zəruri edir.

Dünya sürətlə qloballaşır və dövlətlərarası münasibətlər elə mürəkkəbləşir ki, ən güclü dövlətlər belə meydana çıxan riskləri tam olaraq aradan qaldırmaq iqtidarında deyil. Səbəb isə riskin mahiyyətində və təbiətindədir – bu faktor müasir dünyanın özəlliyidir və təbii olaraq hər yerdə özünü göstərir. Deməli, harada siyasi proseslər varsa, orada risk də vardır. Ona görə də xarici siyasətdə daha konstruktiv yanaşma risklərin idarə edilməsindən ibarət olmalıdır. Risklər prinsipcə qərarların qəbul edilməsi ilə sıx bağlıdır. Xarici siyasətlə əlaqəli bu aspektdə iki məqamı vurğulamaq lazımdır. Birinci aspekt xarici siyasətin hədəfinin mahiyyətindən çıxış edərək diplomatın qəbul etdiyi qərarların təhlilindən ibarətdir. Bu aspektdə qərar qəbul edilməsi problemin özəlliyindən asılı olur. Bu zaman məqsədlər müəyyənləşir, uyğun prinsiplər formalaşdırılır və diplomatik gedişlərin qiymətləndirilməsi metodikası təklif edilir. Həmin əsasda da səmərə və zərərin nisbəti ehtimali olaraq müəyyənləşdirilir. İkinci aspektdə diplomatın erudisiyası, dünyagörüşü, situasiyanı dəyərləndirmə qabiliyyəti və psixoloji özəllikləri əsasında qəbul etdiyi qərarların qarşıya qoyulan məqsədə adekvatlığı diqqət mərkəzində olur. Bu halda meydana çıxa biləcək geosiyasi risklər müəyyən edilir. Bu yanaşma analitik təfəkkürlə ilə sıx əlaqəlidir

---

* Sinergetik Tədqiqatlar Mərkəzinin Analitika Departamentinin müdiri, XİN-nin Mərkəzi Asiya şöbəsinin I-ci katibi

və diplomatiyada da tətbiq edilir. Analitik düşüncə subyektə müxtəlif situasiyalarda maksimum səmərə verə biləcək formal qaydalar, prosedurlar, metodikalar verə bilir.

Geosiyasət ölkənin coğrafi mövqeyini nəzərə alaraq dövlət siyasətinin aparılmasıdır. Bu, mürəkkəb prosedurdur və avtomatik olaraq özündə çoxlu sayda faktoru birləşdirir. Öz növbəsində həmin siyasətin yeridilməsi zamanı meydana çıxan risklər də bir çox faktorları özündə birləşdirir. Bunlar dövlətin xarici təcavüzə məruz qalması (hətta zəbt edilməsi) riski, daxili qüvvələrin təsiri altında dövlətin dağılması riski, dövlətin öz maraqlarını beynəlxalq aləmdə müdafiə etmək qabiliyyətinin azalması – suverenitetin aşağı düşməsi riski, siyasi risk, ölkə daxili riskləridir. Beləliklə, geosiyasi risklər strateji mahiyyətlidir və zərər miqyasına görə qlobaldır. Öncələr bu riskləri fundamental risklərə aid edirdilər ki, nəticəsi olaraq "fors-major" vəziyyətlər kateqoriyasında idilər. Qloballaşmanın müasir səviyyəsi isə bu risklərin idarə edilməsi məsələsini aktuallaşdırır. Geosiyasi risqlərin idarəedilməsi subyektləri kimi beynəlxalq təşkilatlar (BMT, MAQATE, ÜDM, ÜDTT, ATƏT və s.), dövlət hakimiyyəti orqanları, transmilli korporasiyalar, milli elitalar, etnoslar, diasporalar, siyasi partiyalar çıxış edə bilərlər. Geosiyasi riskləri idarəetmə vasitələri kimi xarici siyasəti, demoqrafik siyasəti, hüququ, maliyyə-büdcə siyasətini, sənaye siyasətini qeyd etmək olar.

Ona görə də geosiyasi riskləri tədqiq edəndə ideoloji, etnopsixoloji, etniklərarası münasibətləri, mental özəllikləri, geomədəni və s. faktorları da nəzərə almaq lazım gəlir. Xarici siyasət dövlətin beynəlxalq aləmdə yeritdiyi ümumi kursudur. Xarici siyasət müəyyən dövlətin digər dövlətlərlə və xalqlarla münasibətlərini reallaşdırır. Bu zaman dövlətlərarası münasibətlər beynəlxalq hüquq və normalar çərçivəsində imzalanmış ikitərəfli və çoxtərəfli sazişlər əsasında tənzimlənir. Həmin baxımdan xarici siyasətin daxili siyasətlə sıx bağlı olduğunu nəzərə almaq lazımdır. Çünki müasir cəmiyyətlər üçün sistemli yanaşma, daxili və xarici aspektlərin vəhdəti məsələsi həyati əhəmiyyətlidir. Bu nöqtədə xarici siyasətlə cəmiyyətin modernləşməsinin çox müxtəlif aspektləri (sosial, mədəni, psixoloji, ideoloji və s.) kəsişir. Geosiyasi risklərin dəyərləndirilməsində və sistemli şəkildə islahatların aparılmasında həmin məqamın mütləq nəzərə alınması lazım gəlir. Xüsusilə, strateji xarakterli təhlillərdə, siyasi diaqnozlarda və proqnozlaşdırmalarda onun diqqət mərkəzində olması vacibdir.

Geosiyasi risklər və onların idarəedilməsi zərurəti ilə bağlı yuxarıda qeyd edilənlər Cənubi Qafqazda bu risklərin anatomiyasını müəyyənləşdirməyə və ona uyğun xarici siyasət formalaşdırmağa imkan verir. Cənubi Qafqaz regionunda bu risklər üç səviyyədə özünü göstərirlər: 1. Qlobal geosiyasi risklərin müəyyən regionda konkret təzahürü formaları, 2. Regionun tarixi, etnosiyasi, sosial-mədəni, dövlətçilik ənənəsinin xüsusiyyətlərindən qaynaqlanan risklər, 3. Konkret ölkənin siyasi, coğrafi, etno-demoqrafik, sosial-mədəni, iqtisadi və ərazi bütünlüyünə cəmiyyətdə yetişən təhlükələrdən qaynaqlanan risklər.

Bu səviyyələrin hər birinin öz parametrlər sistemi vardır. Məsələn, qlobal risklərin regional təzahüründə sivilizasiyalararası münasibətlərdən qaynaqlanan riskləri, hərbi blokların rəqabətlərindən yaranan riskləri, beynəlxalq terror şəbəkəsi və narkoticarətin yaratdığı riskləri, Transmilli Korporasiyaların maraqları ilə yerli dövlətlərin maraqları arasındakı ziddiyyətlərdən qaynaqlanan riskləri, böyük dövlətlərin apardığı enerji siyasətindən qaynaqlanan riskləri və s. qeyd etmək olar. Cənubi Qafqazın region olaraq özündə yaranan risk parametrləri kimi Cənubi Qafqaza qonşu olan böyük dövlətlərlə yerli dövlətlərin qarşılıqlı münasibətlərindən qaynaqlanan riskləri, regional inteqrasiyaya olan təhlükələri, region dövlətləri arasındakı münasibətlərin inkişafına təcavüzkar xarici siyasətin yaratdığı təhlükələri, region dövlətlərinin ərazisinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə qonşusunun iddialarından yaranan riskləri, Cənubi Qafqazda enerji təhlükəsizliyi ilə təhlükəsizliyin digər sahələri arasındakı ziddiyyətlərdən yaranan riskləri və həmçinin dondurulmuş münaqişələrin yaratdığı riskləri seçmək olar. Ölkənin daxili siyasi, coğrafi, etno-demoqrafik, sosial-mədəni və iqtisadi bütünlüyünə olan təhlükələrdən qaynaqlanan risklərin parametrləri kimi kənardan separatçılığı alovlandırmağa yönələn təsirlərdən qaynaqlanan riskləri, milli azlıqlarla bağlı süni problemlərin yaradılması cəhdlərindən qaynaqlanan riskləri, dini məzhəbliliyin siyasi müstəviyə gətirilməsi cəhdlərindən qaynaqlanan riskləri, Azərbaycanın bölgələri ilə qonşu dövlətlərin qarşılıqlı təmaslarından yarana biləcək bəzi təhlükələri (dini, mədəni, dil, iqtisadi, ənənə

və s. yaxınlıqlar və fərqlərin nisbətinin dəyişmə tendensiyası), nəzarət edilməyən ərazinin digər bölgələrə separatçı təsiri imkanlarından qaynaqlanan riskləri, ölkə ərazisinə kənar iddiaların olmasından qaynaqlanan riskləri, demoqrafik tarazlığın pozulmasından yaranan riskləri (əhalinin artım sürəti, miqrasiya ilə immiqrasiya arasındakı təbii nisbətin pozulması, daxili miqrasiya prosesində əhali paylanmasının qeyri-bircinsliyinin yaranması) ayırmaq mümkündür.

Bölgəmizdə mövcud olan risklər şəraitində Azərbaycanın xarici siyasətində risklərin nəzərə alınması asan məsələ deyil. Diplomatiya müxtəlif səviyyələrdə özünü göstərən risklər arasında bağlılığı da nəzərə almalıdır. Dövlətin xarici siyasətinin konkret zaman kəsimində prioritetləri olduğundan geosiyasi risklərin nəzərə alınmasında müəyyən ierarxiya gözlənməlidir. Məsələn, müasir tarixi mərhələdə Azərbaycanın xarici siyasətində Dağlıq Qarabağ məsələsi prioritet istiqamətdir. Bu məsələnin həll edilməsi yolunda mövcud olan geosiyasi risklərin bir-biri ilə əlaqələndirilməsi, onların vahid strukturda birləşdirilməsi və həmin keyfiyyətdə Azərbaycanın dövləti maraqları müstəvisində idarəedilməsi siyasi və diplomatik yaradıcı münasibət tələb edir. Burada əksər hallarda birbaşa siyasətə aidiyyəti olmayan faktorların təsiri, müvəqqəti də olsa, aktuallaşmasına göz yummaq olmur. Deyək ki, Rusiyada maliyyə böhranının yaranmasının Cənubi Qafqazın geosiyasi dinamikasına təsirini necə və hansı dərəcədə nəzərə almaq lazım gəldiyini müəyyənləşdirmək gərəkdir. Eyni məntiqlə Qərbdə maliyyə sferasında yaranan yeni faktorların bölgəyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə təsiri mexanizmlərinin siyasi aspektləri təhlil edilməlidir. Cənubi Qafqazda geosiyasi dinamikanı aktivləşdirən bu kimi parametrlərin təsirinin xarici siyasətin istiqamətlərində nəzərə alınması özlüyündə dinamik siyasət modelinin qurulması zərurətini ortaya qoyur. Bu baxımdan, Azərbaycanın xarici siyasətinin formalaşmasında risk faktorlarının yerini regionda sosial-mədəni və iqtisadi inteqrasiyanı intensivləşdirmək prizmasında müəyyənləşdirməyin daha perspektivli olduğunu düşünürük. Ancaq bunun üçün diplomatiyamız dondurulmuş münaqişənin həllinə mane olan geosiyasi məqamların zərərsizləşdirilməsi kimi çətin bir işin də öhdəsindən gəlməlidir. Müşahidələr göstərir ki, Azərbaycan diplomatiyası məhz bu aspektdə fəallığını xeyli artırıb və bir çox uğurlar əldə edib. Bu da ölkə prezidentinin xarici siyasət konsepsiyasının Xarici İşlər Nazirliyi tərəfindən sistemli şəkildə həyata keçirildiyini göstərir.

Etiraf etmək lazımdır ki, keçən ilin avqust hadisələrindən sonra Cənubi Qafqazda geosiyasi mənzərənin dinamikasında ciddi dəyişikliklər baş verdi. Burada risk faktoru daha da gücləndi. İndi bu bölgədə geosiyasi vəziyyətin çox həssas olduğu və gözlənilməz hadisələrin baş verə biləcəyi diplomatik fəaliyyətdə nəzərə alınır. Gözlənilməzlik faktoruna hazır olmaq xarici siyasətin əsas məqamlarından birinə çevrilib. Bu aspektdə də biz geosiyasi risklərin idarəedilməsi metodunun daha səmərəli olduğunu düşünürük. Çünki müasir şəraitdə geosiyasi proseslər bir-biri ilə o dərəcədə sıx əlaqəlidir ki, onlara bütöv sistem kimi baxıb, qeyri-müəyyənliklərdən dövlətin maraqları üçün istifadə etmək ən konstruktiv yanaşmalardan biridir. Böyük dövlətlər qlobal miqyasda bu üsuldan istifadə edirlər, regional dövlətlər isə öz miqyasında həmin metoddan yararlanmalıdırlar. Qeyri-müəyyənliklərin diplomatiyada konkret məqsəd üçün sistemli idarəedilməsi ola bilsin ki, yeni bir istiqamətdir. Ancaq bu istiqamətdə elə addımlar atmaq lazımdır ki, uğurlu xarici siyasi xətti daha da yüksək səviyyəyə qaldırmaq mümkün olsun. Regional səviyyədə yaranmış qeyri-müəyyən situasiyalarda elə balanslaşdırılmış xarici siyasət aparmaq lazımdır ki, sonunda dövləti maraqlarımızı təmin etməm mümkün olsun.

Beləliklə, ierarxik təbiətli geosiyasi risklərin mövcudluğu şəraitində uğurlu xarici siyasətin formalaşdırılması siyasətə yeni elmi yanaşmaları tətbiq etməyi zərurət kimi meydana çıxarır. Burada əsas prinsip kimi risklərin ləğv edilməsi yox, idarəedilməsinin müasir şəraitə daha uyğun olduğu məqsədə müvafiqdir. Risklərin idarəedilməsi isə konkret zamanda xarici siyasətin prioritetlərinə uyğun olaraq aparılmalıdır. Bu da risklərin idarə edilməsinin öncədən konkret məqsədə xidmət etməli olduğunu göstərir. Yəni hər bir mərhələdə risklərin idarə edilməsinin taktikası dəyişə bilər. Bütün hallarda isə dövlətin maraqlarının təmini əsas hədəf kimi diplomatik fəaliyyətin mərkəzində durmalıdır. Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərin hazırkı mərhələsində risk faktorunun əhəmiyyəti aydın surətdə görünür. Bölgəmizdə böyük dövlətlərin geosiyasi maraqlarının

toqquşmasından qaynaqlanan bir sıra risklər münaqişələrin həllində diplomatiyadan daha geniş şəkildə istifadə edilməsini tələb etməkdədir. Çünki, əks halda risklərin hesabına Cənubi Qafqazın bütövlükdə taleyi sual altına düşmüş olur. Buradan müasir tarixi mərhələ üçün xarakterik olan bir nəticə ala bilərik: geosiyasi situasiyanın kəskinləşməsi bəşəriyyət qarşısında iki seçim qoyur. Birincisi, radikal davranışlar sisteminə keçid. Bu, qeyri-konstruktiv və dağıdıcı yoldur. Həmin variantda dünya dövlətləri münasibətlərini hərbi güc vasitəsi ilə aydınlaşdırmağa meyllənərlər. Bu yanaşma müasir dünyanın təkamül mexanizmlərinə ziddir. Cənubi Qafqazda da radikal davranışlar son dərəcə təhlükəli proseslərə yol aça bilər. İkincisi, dialoq diplomatiyasına keçid. Dialoq diplomatiyası istənilən kəskinləşmiş geosiyasi situasiyada qarşılıqlı anlaşma prinsipinə dayanan diplomatiyadan istifadə etməyi nəzərdə tutur. Bununla nəzəri olaraq geosiyasi risklərlə dialoq diplomatiyasının müqayisəsini aparmaq olar. Dialoq diplomatiyası geosiyasi risklərin ləğvinə yox, idarəedilməsinə aparır. Burada kəskinləşmiş proseslərə malik olan sistemin daxili potensialından pozitiv yöndə yararlanmaq imkanı göz önünə gəlir. Yəni kəskinləşmiş sistemin özündə elə faktorları (və ya elmi terminologiya ilə desək, parametrləri) üzə çıxarmaq lazımdır ki, riskləri idarəetmə hesabına geosiyasi məkanın özünütəşkil etməsinə imkan yaransın. Müasir elmi terminologiyada həmin faktorlara "nizamlama parametrləri" deyirlər. Həmin parametrlərin bir-biri ilə uyğunlaşdırılması geosiyasi məkan kimi mürəkkəb sistemdə də riskləri idarəetmək hesabına daha sabit durum yarada bilər. Məsələnin elmi isbatı aspekti üzərində dayanmadan qeyd edək ki, müasir diplomatiya təcrübəsində artıq həmin mənada addımlar atılır. İndi diplomatlar "şəbəkə diplomatiyası", "çoxqütblü dünya modeli", "alternativlərin sintezi" və s. kimi ifadələrdən istifadə edirlər. Bu ifadələr önləyici diplomatik gedişlərlə sıx bağlılıqda nəzərdən keçirilməkdədir. Bu da müasir siyasətdə təhlillə proqnozun, riskli situasiyalarda təkamülə nail olmağın vəhdətinin əsas yer tutduğunu göstərir. Siyasi və geosiyasi fəlakətlərin qarşısını almağın səmərəli üsulu bu yanaşma sayılır. Qara dəniz, Qafqaz və Orta Asiyada baş verən geosiyasi proseslərin bir-biri ilə əlaqəsinin təhlili və o əsasda verilən bir sıra proqnozlar bu nəzəri müddəanın konkret praktiki təsdiqini ortaya qoyur.

Qara dəniz, Qafqaz və Orta Asiya ilə bağlı dünyanın böyük güclərinin yeritdikləri siyasət meydana üzərində düşünüləsi yeni faktorlar çıxarmaqdadır. Bu bölgələrin hər birinin öz ziddiyyətləri vardır və onlar müəyyən hallarda məhdud məkanda təsir göstərə bilirlər. Lakin son zamanlar bu regionlar üçün ortaq olan və oradakı geosiyasi duruma ciddi təsir etmək imkanına malik proseslər də özünü göstərməkdədir. Bizi daha çox Dağlıq Qarabağ məsələsinə bu proseslərin ehtimali təsirləri və Azərbaycan diplomatiyasının bunlara çevik reaksiya verməsi imkanlarını artırması fonunda formalaşması ehtimal olunan geosiyasi mənzərə maraqlandırır.

Hazırda Orta Asiya həm yerli dövlətlər arasındakı münasibətlərin perspektivləri, həm də böyük geosiyasi güclərin oradakı maraqlarını təmin etmək üçün apardıqları mübarizənin yeni çalarları baxımından diqqəti çəkir. Orta Asiya ilə bağlı vəziyyəti təhlil edərək, bölgədəki yerli dövlətlər arasında imperiya dövründən yaradılmış ziddiyyətlərin potensial konflikt olaraq qalmasını, onların müəyyən geosiyasi şərtlər yetişdikdə alovlandırıla bilinəcəklərini, yəni geosiyasi risk faktoru rolunu oynadıqlarını qeyd etmək olar. Həmin ziddiyyətlər əsasən etnik xarakter daşıyır və ərazi anlaşılmazlıqları formasında hələ qalmaqdadır. Burada əsas diqqətin Özbəkistan-Tacikistan, Özbəkistan-Qırğızıstan və qismən Özbəkistan-Qazaxıstan, Özbəkistan-Türkmənistan münasibətlərinə yönəltmək daha doğru olardı. Hər münaqişənin bir başının Özbəkistan olması diqqəti çəkir. Bizcə, bu, qəsdən planlaşdırılıb, çünki Özbəkistan Orta Asiyanın coğrafi olaraq mərkəzində yerləşir və onu ərazi baxımından rəmzi olaraq bütövləşdirir. Ona görə də Özbəkistanla hər hansı Orta Asiya dövləti arasında konflikt yaratmaq bölgənin ərazi və kommunikativ bütövlüyünü avtomatik olaraq pozmaq deməkdir.

Digər tərəfdən, hazırkı tarixi mərhələdə enerji faktorunun ümumi təhlükəsizliyin əsas həlqəsinə çevrilməsindən kənardakı bəzi qüvvələrin yararlanması imkanı artıb. Belə ki, Qərb (ABŞ başda olmaqla), Rusiya, Çin və Hindistan Orta Asiya uğrunda ciddi mübarizəyə başlayıblar. Bu qüvvələrin hər birini birləşdirən bir ümumi faktor vardır – Orta Asiyanı öz geosiyasi və enerji maraqlarının "ehtiyat bazası" kimi görmək. Bu, Çinlə ABŞ arasındakı gərgin geosiyasi mübarizədə daha qabarıq özünü göstərir. Çin Türkmənistandan başlayaraq Özbəkistan, Qazaxıstan və Qırğızıstandan keçməklə nəhəng qaz marşrutunu işə saldı.

Ekspertlərin verdiyi məlumata görə, bu marşrutla ayda 45 milyard kubmetr qaz Çinə vurulacaq. Müqayisə üçün deyək ki, indi Rusiyaya Türkmənistan ayda 40 milyard kubmetr qaz verir. Deməli, perspektiv baxımından Çinə nəzərdə tutulan qazın miqdarı həm Rusiya, həm də Qərbə nəzərdən tutulandan çox olacaq (gələcəkdə Çin istiqamətində ayda 80 milyard kubmetr qaz verilməsi nəzərdə tutulmuşdur). Bundan əlavə, Çin Orta Asiyaya külli miqdarda sərmayələr qoymaqda davam edir. Bu, demək olar ki, bütün bölgə dövlətlərini əhatə edir.

Çinlə yanaşı, Hindistan da enerji layihələrini həyata keçirməyə başlayıb. Bu yaxınlarda Türkmənistan-İran-Hindistan marşrutu üzrə iri enerji "dəhlizinin" açılması barədə razılıq əldə edilib.

Bunlar onu təsdiq edir ki, Orta Asiyada Çin və Hindistan faktoru aktivləşməkdədir. Rusiya buna dərhal reaksiya verdi – prezident Dmitri Medvedyev Aşqabada səfər etdi və müəyyən razılıq əldə edə bildi. Bununla da Çin və Rusiya faktoru Orta Asiyada uzlaşan kimi görünür, lakin onların daxili rəqabət halında olduqlarını unutmaq olmaz.

Bütün bunlara Qərb seyrçi qalmır. Onun öz planları var və əsasən "Nabukko" ilə bağlıdır. Bu layihəyə Çin, Rusiya və Hindistanın mane ola biləcəyi yuxarıdakı faktlardan aydın görünür. Deməli, Orta Asiya uğrunda geosiyasi savaşın yeni çalarları artıq formalaşıb. Bu aspektdə Qərbin əlində bir güclü vasitə vardır; onlar Çinə gedən enerji daşıyıcılarının tranziti üzərində olan Malak boğazına[1] nəzarət edirlər. Bununla enerji daşınması üzrə ümumilikdə bölgədəki durumu nəzarətdə saxlaya bilirlər.

Orta Asiya bölgəsi bu nəzarətdən qurtarmaq üçün Çinə ehtiyat zona rolunu oynamalıdır. Deməli, əslində Qərb Orta Asiyanı itirməklə Çin kimi böyük gücə nəzarəti itirmiş olur. Bu da durumu olduqca həssas edir.

Qərb paralel olaraq başqa enerji marşrutlarını işə salmağa və ora Orta Asiyanı da cəlb etməyi planlaşdırır. Bu günlərdə Batumidə keçiriləcək enerji sammiti "Cənub Axını" adlanan layihə ilə bağlıdır. Bu, Türkiyə və Rusiyadan yan keçməklə Şərqi Avropaya enerji daşıyıcılarını çıxarmağı nəzərdə tutur. Həmin layihə bir neçə bölgə dövlətinin Qərbin enerji təhlükəsizliyinə təsir etmək imkanlarını minimuma endirə bilər. Paralel olaraq, meydana geosiyasi güc olaraq Polşa çıxarılır. Polşanın oyuna qatılması Qərblə geosiyasi mübarizə aparan qüvvələrin güclərinin parçalanmasına səbəb ola bilər. Onlar Qərb adı altında bir neçə əsas oyunçu ilə savaşmağa məcbur olarlar. İndidən bəzi təhlilçilər Polşa ilə Türkiyə arasında ziddiyyətlərin yarana bilməsindən danışırlar. Rusiya-Polşa münasibətləri hər kəsə məlumdur. Çinin də Polşa məsələsinə münasibəti aydındır. Deməli, Orta Asiya və Qafqaz-Qara dəniz regionu faktiki olaraq bir neçə tərəfdən geosiyasi həmlələrin meydanına çevrilib. Bu prosesin əsas əlaməti hansılar ola bilər?

Şübhə yoxdur ki, Orta Asiyada konfliktlər yaratmaq variantı bəzilərinin ağıllarına gələ bilər. İndidən məlumat verilir ki, ABŞ-dan gizli yolla Qazaxıstana silah aparan tanker tutulub. Bu haqda məlumatı Qazaxıstan mənbələrinə əsasən Rusiya KİV-i yayıb. Eyni zamanda, Qazaxıstandan İrana nüvə maddəsi ötürüldüyü haqqında informasiyalar geniş yayıldı. Bunların fonunda Tacikistan prezidenti İmaməli Rahmonun Özbəkistana ərazi iddiasında bulunduğunu açıq deməsi düşündürücüdür. O, hətta bu məsələ üzərində İslam Kərimovla bir neçə dəfə dalaşdığını deyib. İndi KİV-də özbəklərin sərhəd məntəqələri yaxınlığında qırğız sərhədçiləri tutduqları barədə informasiyalara rast gəlmək olar. Guya qırğız sərhədçilər oğurluq edirmişlər. Bütün bunlar tədrici olaraq insanların bir-birinə inamını azaldır və psixoloji gərginliklər yaradır. Əsas isə odur ki, rəsmi səviyyədə Orta Asiya dövlətləri bir-birinə qarşı ərazi iddiası istəyini bildirirlər. Bunların fonunda Əfqanıstan məsələsi çox həssas mövzu təsiri bağışlayır. Əfqanıstan Orta Asiyaya "din mücahidləri" yeritmək və narkoticarət vasitəsi ilə ziddiyyətlər yaratmaq üçün yaxşı bazadır.

Bütün bunlar bir nəticə çıxarmağa əsas verir: yaxın perspektivdə böyük güclər Orta Asiya uğrunda amansız savaşa girişə bilərlər ki, bu da konfliktlərin yaranması və deməli, risklərin

[1] Malak boğazı (Selat Malaka) — Malay yarımadası ilə (qərbi Malayziya) Sumatra adası (İndoneziya) arasındakı yerdir. Strateji və iqtisadi planda bu məkan dəniz yolu kimi Sueş və Panama kanalları qədər önəm daşıyır. Bu, Hind okeanı ilə Sakit okeanı birləşdirən əsas yoldur. Hindistan, İndoneziya və Çin arasındakı dəniz əlaqəsi bu boğaz vasitəsi ilə qurulur. Boğazdan ildə 50 min gəmi keçir. O da həmin bölgənin ticarət dövriyyəsinin ¼-ini təşkil edir. 2003-cü ildə boğazdan hər gün 11 milyon barel neft daşınıb. Əsasən, Çin, Cənubi Koreya və Yaponiyanın enerjiyə olan tələbatını ödəyən məhsullar daşınır. Onun miqdarı durmadan artır.

artması ilə müşayiət oluna bilər. Onda qalib gəlməyə çalışan hər bir güc öz qüvvəsini başqa bölgələrdən çəkməyə meyl edəcək. Daha doğrusu, "savaş meydanı"nı daraldacaqlar ki, daha yaxşı nəzarət edə bilsinlər. Bu da avtomatik olaraq, Orta Asiyaya yaxın bölgələrdə münaqişələrin yatırılması ehtiyacını ortaya atır. O cümlədən, qaynar Qafqazdakı münaqişələr Orta Asiyada "əl-ayağa dolaşmamalıdır". Qəribə də olsa, bu tələskənlik Dağlıq Qarabağ məsələsində "zaman paradoksu"nu yaradır. Onun əlamətləri aşağıdakılardır:

1. Orta Asiyada uğur qazanmağa çalışan geosiyasi güclər Cənubi Qafqazın ən həssas məsələsi olan Dağlıq Qarabağ məsələsinə son qoymağa və ya heç olmazsa, dondurmağa çalışacaqlar. Bunun üçün onların diplomatik fəallığı artırmasını gözləmək olar. Bu güclərin ABŞ və Rusiya olacağını düşünürük.
2. Həmin məqsədə çatmaq üçün Türkiyədən istifadə edə bilərlər. Yəni Türkiyənin Azərbaycanı yola gətirməsi üçün müxtəlif təzyiq üsullarına davam edə bilərlər.
3. Bu məqsədlərə çatmaq üçün bölgə xalqının psixoloji durumundan istifadə etməyə çalışarlar. Yəni uzun sürən münaqişədən bezən insanlara "baxın, məsələni həll edirik", deyib tələsik qərarlara onları inandırmağa çalışarlar.
4. Qərb və Rusiyada hələ də Ermənistan təəssübkeşliyinin güclü olduğunu nəzərə alsaq, əsasən Azərbaycanın güzəştə getməsini istəyərlər.
5. Öncə bəzi rayonların boşaldılmasına nail olub, məsələni yarımçıq qoymaqla vaxt qazanar və Orta Asiyada durum sabitləşəndən sonra Ermənistana havadarlıqlarını davam etdirə bilərlər.

Bütün bunlar toplam halında bir tərəfdən problemin tez həll edilməsini tələb edir, digər tərəfdən də böyük güclərin öz maraqları naminə Azərbaycandan güzəştlər tələn etməsi ehtimalını artırır. Bu durumda əsas güc Azərbaycan diplomatiyasına düşür.

Azərbaycan diplomatiyası, bizcə "zaman paradoksu" şəraitində qabaqlayıcı addımlar üsuluna keçməlidir. Yəni bu durumun yaratdığı həssaslığı öz xeyrinə istifadə etmək və bununla böhrandan qazancla çıxmağı bacarmalıdır. Bunun üçün Azərbaycan öz mövqeyindən qətiyyən çəkilməməli və paralel olaraq hərbi gücünü ortaya qoymalıdır. Hərbi güc xəbərdaredici və məcburedici xarakterdə olmalıdır. Belə ki, diplomatiya üçün hərbi faktor təzyiq rolunu oynamalıdır. Azərbaycan diplomatiyası mahiyyətcə dialoq xarakterliyini saxlayır. Bu dialoq bölgənin hər bir dövləti ilə fərqli tərzlərdə aparıla bilər. Lakin əsas məqam odur ki, aktiv dialoq diplomatiyası kiməsə güzəştə getmək yox, "işğalçı ərazilərimizdən çəkilməsə onu buna məcbur edəcəyik" məntiqi üzrə aparılmalıdır. Qərb və ya Rusiyanın hər hansı tələskənlik niyyətinə qarşı real və praqmatik maraqlar sistemi qoyulmalıdır. Bununla "zaman paradoksu" Dağlıq Qarabağ probleminin ədalətli həll edilməsini sürətləndirən faktora çevrilə bilər.

Göründüyü kimi, fraqmentar məkanda dağıdıcı təbiətə malik, riski özündə daşıyan faktorlar müəyyən şərtlər daxilində sistemi böhrandan çıxaran və yeni struktur səviyyəsinə qaldıran "nizamlama parametri" rolunu oynaya bilərlər. Bu da müasir tarixi mərhələdə risklərin dialoq diplomatiyası vasitəsi ilə optimal idarəedilməsi və onların ümumilikdə sistemin yeni özünütəşkil səviyyəsinə qalxması mexanizmlərinin mövcudluğunu göstərir.

# BMT-NİN İNSAN HÜQUQLARI ŞURASI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ BU QURUMDAKI FƏALİYYƏTİ

Şəfa QASIMOVA *

